RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 6 (8599) ÇƏRŞƏNBƏ AXŞAMI, 12 yanvar 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

## Azərbaycan Prezidenti İlham Əliyev Rusiyaya işgüzar səfər edib



Yanvarın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə Moskvaya işgüzar səfərə gedib.

AZƏRTAC xəbər verir ki, Moskvanın "Vnukovo-2" Beynəlxalq Hava Limanında dövlətimizin başçısını Rusiya Federasiyasının xarici işlər nazirinin müavini Andrey Rudenko və digər rəsmi şəxslər qarşılayıblar.

## Moskvada üçtərəfli görüş keçirilib



Yanvarın 11-də Moskvada Rusiya Prezidenti Vladimir Putin, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında üçtərəfli görüş keçirilib.

Ardı 2-ci səh.

## 190 ölkə arasında 28-ci

### 10 ən islahatçı ölkə sırasına daxil olan Azərbaycanda aparılan iqtisadi islahatları beynəlxalq qurumlar yüksək qiymətləndirirlər

Bir vaxtlar dünyada dövlətlərin hegemonluğunu təmin edən əsas faktor hərbi güc idi. Amma dünya iqtisadiyyatı inkişaf etdikcə ölkələrarası rəqabətdə hərbi güclə yanaşı, iqtisadi amil də önəmli rol oynamağa başladı. Son dövrlərdə isə iqtisadi inkişaf və ondan qaynaqlanan qüvvə əsas faktora çevrilib. Məsələn, məlumdur ki, Rusiya hərbi gücünə görə Çindən üstündür. Lakin Çinin iqtisadi gücü Rusiyanı bu ölkə ilə hesablaşmağa məcbur edir.

Heç kim inkar etməz ki, ölkəmizin Vətən müharibəsində Ermənistan üzərində tarixi qələbə qazanmasında iqtisadi amilin də mühüm rolu olmuşdur. Ən azından ona görə ki, güclü iqtisadiyyat bizə güclü ordu yaratmağa imkan vermişdir. Savaş zamanı Azərbaycan Ordusunun arsenalında olan müasir silahlar erməni ordusundakı köhnə silahları asanlıqla məhv edə bilirdi. Ümumiyyətlə, iqtisadi imkanlarımız ordumuza döyüş aparmaq üçün lazım olan bütün imkanları yaradırdı. Heç bir iqtisadi imkanları olmayan Ermənistan isə real gücümüz qarşısında müqavimət göstərə bilmirdi. Bir sözlə, zəfərlə başa çatan Vətən müharibəsi bir daha göstərdi ki, iqtisadi inkişafımız işğal olunmuş torpaqlarımızın hərbi yolla azad edilməsində mühüm rol oynadı.

İqtisadi faktorun dünya düzənində nə qədər əhəmiyyətli olduğu ölkələrin bir-birinə qarşı tətbiq etdiyi sanksiyalardan da aydın görünür. Bu zaman iqtisadi faktor hərbi və siyasi faktorlardan üstün tutulur. İndi dövlətlər bir-birinə raket əvəzinə iqtisadi zərbələr endirməklə rəqiblərini çökdürməyə və ya istədikləri şərtləri qəbul etdirməyə çalışırlar.

Ardı 5-ci səh.

## Qarabağ inkişaf və quruculuq mərkəzinə çevriləcək

Azərbaycan üçün 2020-ci ilin ən böyük hadisəsi 30 ilə yaxın işğal altında olan torpaqlarımızın azad edilməsi oldu. Bu hadisə mühüm hərbi-siyasi qələbə kimi bütün tariximizi şərəfləndirdi, gələcəyimizə işıq saldı. Bu tarixi zəfər xalqımızın həmrəyliyinin, öz milli haqqı uğrunda mübarizə əzminin nümayişi oldu. Bu qələbə dövlətimizi və xalqımızı bütün dünyada ucaltdı, Azərbaycanın imicini, beynəlxalq nüfuzunu yüksəltdi.

### Böyük Qələbə 2020-ci ilin əsas hadisəsidir

Bu zəfərlə Ermənistanın 30 illik işğalına son qoyuldu, məğlubiyyət damğası birdəfəlik üzərimizdən götürüldü, yeganə ağrılı problemimiz başa çatdı. Azərbaycan döyüş meydanında yalnız Ermənistanı cəzalandırmadı, həm də cəmi 44 gün ərzində uzun onilliklərdir xalqımız barədə dünyada mənfi obrazlar yaratmağa çalışan dünya erməniliyinə böyük zərbə vurdu. O cümlədən Ermənistan ordusunun gücü, erməni əsgərinin döyüş əzmi barədə uydurulmuş mif bir neçə günə darmadağın edildi.

Ardı 5-ci səh.

## Azərbaycan Respublikası Prezidentinin, Ermənistan Respublikası baş nazirinin və Rusiya Federasiyası Prezidentinin BƏYANATI

*11 yanvar 2021-ci il*

Biz, Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyev, Ermənistan Respublikasının baş naziri N.V.Paşinyan və Rusiya Federasiyasının Prezidenti V.V.Putin aşağıdakıları bəyan edirik:

1. 2020-ci il 9 noyabr tarixli Bəyanatın 9-cu bəndinin regionda bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası ilə bağlı hissəsinin reallaşdırılması məqsədilə Rusiya Federasiyasının Prezidenti V.V.Putinin Azərbaycan Respublikasının, Ermənistan Respublikasının baş nazirləri müavinlərinin və Rusiya Federasiyası Hökumətinin sədr müavininin birgə həmsədrliyi ilə üçtərəfli İşçi qrupu yaradılması barədə təklifi dəstəklənir.

2. İşçi qrupu 2021-ci il yanvarın 30-dək ilk iclasını keçirəcək, bu iclasın nəticələrinə görə Bəyanatın 9-cu bəndinin reallaşdırılmasından irəli gələn işlərin əsas istiqamətlərinin siyahısını formalaşdıracaq, prioritet qismində dəmir yolu və avtomobil yollarını müəyyən edəcək, həmçinin bundan sonra Tərəflər adlanacaq Azərbaycan Respublikası, Ermənistan Respublikası və Rusiya Federasiyası arasında razılaşma əsasında digər istiqamətləri müəyyən edəcəkdir.

3. Fəaliyyətin əsas istiqamətlərinin reallaşdırılması məqsədilə İşçi qrupunun həmsədrləri bu istiqamətlər üzrə Tərəflərin səlahiyyətli hakimiyyət orqanları və təşkilatlarının vəzifəli şəxslərindən ibarət ekspert yarımqruplarının tərkibini təsdiq edəcəklər. Ekspert yarımqrupları İşçi qrupunun iclasından sonra bir ay müddətində layihələrin siyahısını təqdim edəcək, onların reallaşdırılması və Tərəflərin yüksək səviyyədə təsdiq etməsi üçün zəruri resursları və tədbirləri əsaslandıracaqlar.

4. İşçi qrupu 2021-ci il martın 1-dək Azərbaycan Respublikası və Ermənistan Respublikası ərazisindən həyata keçirilən beynəlxalq daşımaların, həmçinin Azərbaycan Respublikası və Ermənistan Respublikası tərəfindən həyata keçirilən, yerinə yetirilməsi zamanı Azərbaycan Respublikasının və Ermənistan Respublikasının ərazilərinin kəsişməsi tələb olunan daşımaların təşkili, yerinə yetirilməsi və təhlükəsizliyinin təmin edilməsi üçün zəruri olan yeni nəqliyyat infrastrukturu obyektlərinin bərpasını və tikilməsini nəzərdə tutan tədbirlərin siyahısını və reallaşdırılması qrafikini Tərəflərin yüksək səviyyədə təsdiqləməsi üçün təqdim edəcək.

***Azərbaycan Respublikasının Prezidenti***
***İ.H.Əliyev***

***Ermənistan Respublikasının baş naziri***
***N.V.Paşinyan***

***Rusiya Federasiyasının Prezidenti***
***V.V.Putin.***

**◆ İlin uğurlu yekunları**

## Zəfər salnaməsi

### Azərbaycan tarixinin 44 şərəf günü

Azərbaycan xalqı üçün geridə qalan 2020-ci ilin ən böyük hadisəsi ərazi bütövlüyünün bərpası oldu. Sentyabrın 27-də başlanan və 44 gün davam edən Vətən müharibəsində Azərbaycan Ordusu təcavüzkar Ermənistanı məğlub edərək işğal siyasətinə son qoydu. Bu savaş Müzəffər Ali Baş Komandan İlham Əliyevin şərtləri əsasında düşmənin kapitulyasiyası ilə başa çatdı.

### Qubadlıda Azərbaycan bayrağı dalğalandı

Zəngilandan sonra Azərbaycan Ordusunun növbəti hədəfi Qubadlının azad olunması idi və bu rayondan ilk xəbər oktyabrın 23-də gəldi. "Müzəffər Azərbaycan Ordusu Qubadlı rayonunun Zilanlı, Kürd Mahrızlı, Muğanlı və Alaqurşaq kəndlərini işğaldan azad etmişdir", - deyə Prezident İlham Əliyev özünün "Twitter" səhifəsində yazdı.

Zəngilanın azad edilməsindən sonra Ermənistan Qubadlı rayonunun ərazisinə əlavə qoşunlar cəlb etmişdi. Lakin Müzəffər Ordumuzun qarşısında onların hamısı aciz qaldı və oktyabrın 25-də Ali Baş Komandan İlham Əliyev Qubadlı şəhərinin işğalçılardan azad edilməsi xəbərini xalqımıza verdi.

Dövlət başçısı Qubadlı şəhərinin və bu rayonun bir neçə kəndinin işğalçılardan azad olunmasında fərqlənmiş hərbi birlik komandirləri Yaşar Həsənovu və Zaur Quliyevi təbrik etdi, onlara Vətən uğrunda gedən döyüşlərdə yeni uğurlar arzuladı.

Oktyabrın 26-da xalqa müraciət edən Prezident İlham Əliyev Zəngilan rayonunun Birinci Alıbəyli, İkinci Alıbəyli, Rəbənd, Yenikənd, Cəbrayıl rayonunun Qovşudlu, Sofulu, Dağ Maşanlı, Kürdlər, Hovuslu, Çələbilər, Qubadlı rayonunun Padar, Əfəndilər, Yusifbəyli, Çaytumas, Xanlıq, Sarıyataq, Mollabürhan kəndlərinin və Qubadlı şəhərinin azad olunduğunu bəyan etdi.

Dekabrın 23-də Qubadlı rayonuna səfəri zamanı Prezident İlham Əliyev bu rayonun azad edilməsinin strateji əhəmiyyəti barədə danışaraq deyib: "Qubadlı rayonunun və Qubadlı şəhərinin azad edilməsi bizə böyük strateji üstünlük təmin edirdi.

*(Əvvəli qəzetin 8, 9, 10 yanvar nömrələrində)*

Ardı 5-ci səh.



## Pandemiyaya qarşı effektiv mübarizə müsbət nəticələr verir

Dünyada pandemiya böhranı davam edir. Koronavirusun Yer üzərində nə qədər qalacağı, ondan tamamilə qurtulmağın mümkün olub-olmayacağı barədəki suallar hələ də açıq qalmaqdadır. Artıq bu təhlükəli virusa yoluxanların sayı 90 milyonu ötüb, 1 milyon yarımdan çox insan həyatını itirib.

Paralel olaraq hazırda bir sıra ölkələrdə sürətli vaksinasiya prosesi həyata keçirilir. İndiyə qədər isə koronavirusa qarşı peyvənd olunan insanların sayına görə ilk yeri İtaliya tutur. Bu ölkədə COVID-ə qarşı peyvəndlənən şəxslərin sayı artıq yarım milyon nəfəri ötüb.

Böyük Britaniyada da sürətli vaksinasiya prosesi aparılır. Birləşmiş Krallığın səhiyyə naziri Mett Henkok bildirib ki, ölkə əhalisinin yeni növ koronavirus infeksiyasına qarşı kütləvi peyvənd olunması proqramı hazırda ölkə rəhbərliyinə gündə 200 mindən çox insana vaksin vurmağa imkan verir. Türkiyədə də kütləvi peyvəndləməyə başlanılacağı gözlənilir.

Vaksinasiya ilə bağlı Azərbaycanda aparılan işlər də yekunlaşmaq üzrədir. Bununla bağlı Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) tərəfindən ölkəmizdə aparılacaq vaksinasiyanın təşkili və əlavə təsirlərinin idarə edilməsi ilə əlaqədar təlimlərə də başlanılıb.

Ardı 7-ci səh.

## İlham Əliyevin dəmir yumruğu Ermənistanın başını əzdi

### İşğal siyasətinin qurbanı olan Ermənistan tarixinin ən ağır, acınacaqlı və utanc dövrünə qədəm qoydu

2020-ci il Ermənistan üçün müharibədə məğlubiyyət və sosial-iqtisadi, ictimai-siyasi müstəvilərdə vəziyyətin son dərəcə gərginləşməsi ilə yadda qaldı. İkinci Qarabağ müharibəsi Azərbaycanın parlaq qələbəsi ilə başa çatdı və Ermənistanın döyüş meydanında diz çökdürülməsi ilə 30 ilə yaxın idi zəbt edilmiş torpaqlarımız azad olundu. İşğal siyasətinin və Azərbaycanın dəmir yumruğunun nəticəsində Ermənistan tarixinin ən ağır, böhranlı və rüsvayçı dövrünə qədəm qoydu.

### Azərbaycan Prezidenti işğalçı ölkənin rəhbərliyini həmişə mat vəziyyətinə salıb

Ümumiyyətlə, Azərbaycan Prezidentinin həyata keçirdiyi uğurlu diplomatik fəaliyyət, çevik siyasət Ermənistanı, şahmat dili ilə desək, həmişə mat vəziyyətində qoyub. Bu siyasətin nəticəsində vaxtilə Ermənistanda hakimiyyətdə olmuş Koçaryan-Sarkisyan hərbi xuntası, daha sonra isə Nikol Paşinyan daim çıxılmaz vəziyyətə salınıblar. Onların da iştirakı ilə keçirilən bütün beynəlxalq tədbirlər, sammitlər Azərbaycanın maraqlarına uyğun nəticə ilə yekunlaşıb: İlham Əliyev yüksək siyasi-diplomatik peşəkarlıqla Ermənistan rəhbərliyini daim ifşa edib, onu rəzil hala salıb və dünya erməniliyinin əsl məkrli mahiyyətini danılmaz faktlarla dünya ictimaiyyətinə çatdırıb.

Elə 20 il Ermənistana rəhbərlik etmiş oğru, kriminal rejimin hakimiyyətdən qovulmasını təmin edən şərtlərdən biri də məhz Prezident İlham Əliyevin həyata keçirdiyi təcrid siyasəti olub. Bu siyasətin nəticəsində Ermənistan bütün layihələrdən kənarda qalıb, erməni xalqı isə işğal siyasətinin qurbanı olaraq səfalət içində yaşayıb. Son 30 il ərzində bu ölkədə nəyinsə müsbətə doğru dəyişdiyini görmək, ümumiyyətlə, mümkün deyil.

Azərbaycan Vətən müharibəsində Koçaryan-Sarkisyan hərbi xuntasının işğalçı və terrorçu ordusunu məğlub etdi. Ali Baş Komandan İlham Əliyev işğaldan azad edilmiş Ağdam şəhərində olarkən deyib ki, Ermənistanın keçmiş rəhbərləri İkinci Qarabağ müharibəsi dövründə qaçıb gizlənib, döyüş bölgəsinə burunlarını da belə soxa bilmədilər: *"Bəs haradadır sizin qəhrəmanlığınız? Dedim ki, çıxarın dəmir-dümürləri, onun qiyməti yoxdur. Qəhrəman ordenləri taxmısınız döşünüzə.*

Ardı 7-ci səh.

# Moskvada üçtərəfli görüş keçirilib



*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən Rusiya Prezidenti **Vladimir PUTİN** dedi:

- Hörmətli İlham Heydər oğlu.

Hörmətli Nikol Vovayeviç.

Sizi Moskvada salamlamağa çox şadam. Sizə minnətdaram ki, keçən il noyabrın 9-da Dağlıq Qarabağa dair imzaladığımız üçtərəfli Bəyanatın reallaşdırılmasının gedişini, mövcud problemlərin aradan qaldırılmasına və regionda dinc həyatın qaydaya salınmasına dair sonrakı addımları birlikdə müzakirə etmək təklifimizi qəbul etmisiniz.

Rusiya ölkələrimizi və xalqlarımızı bir-birinə bağlayan tərəfdaşlıq və mehriban qonşuluq münasibətlərini yüksək qiymətləndirir. Buna görə də biz alovlanmış silahlı münaqişəni həyəcanla və insanların taleyinə görə narahatlıqla izləyirdik. Təəssüf ki, genişmiqyaslı hərbi əməliyyatlar xeyli sayda insan tələfatına gətirib çıxarıb, Cənubi Qafqazda onsuz da mürəkkəb olan vəziyyəti kəskinləşdirib, terrorizmin yayılma riskini artırıb.

Hörmətli həmkarlar, sizə təşəkkür etmək istəyirəm ki, Rusiya tərəfinin qan tökülməsini dayandırmağa, vəziyyəti sabitləşdirməyə kömək etməyə və davamlı atəşkəsə nail olmağa yönəlmiş fəal vasitəçilik səylərini müsbət qəbul etmisiniz. Ölkələrimizin diplomatik və hərbi idarələri bu mürəkkəb məsələnin həlli üzərində gərgin iş aparıblar. Biz sizinlə daim əlaqədə olmuşuq, birlikdə kompromis axtarmışıq.

Məhz bizim birgə səylərimiz nəticəsində intensiv, o cümlədən xatırladığınız kimi, noyabrın 9-da gecə vaxtı telefon danışıqlarımızdan sonra üçtərəfli Bəyanat razılaşdırıldı və biz sizinlə onu imzaladıq. Məlum olduğu kimi, bu baza sənədində, hər şeydən əvvəl hərbi əməliyyatların tamamilə dayandırılmasından, regiona Rusiya sülhməramlılarının göndərilməsindən və xüsusilə əhəmiyyətli olan odur ki, hərbi toqquşmalardan zərər çəkmiş dinc əhalinin normal həyata qayıtmasına hərtərəfli və səmərəli kömək göstərilməsindən söhbət gedir.

Bu halda xüsusi qeyd etmək istərdim ki, Rusiya özünün bütün fəaliyyətində ATƏT-in Minsk qrupunda əldə edilmiş əsas qaydalara riayət etməyə çalışırdı.

Biz öz hərəkətlərimizi mütəmadi olaraq tərəfdaşlarımız - Minsk qrupunun həmsədrləri ilə razılaşdırmaqda davam edirik.

Bu gün məmnuniyyətlə qeyd etmək olar ki, üçtərəfli razılaşmalar ardıcıl olaraq reallaşır. Biz əminik ki, bu, çoxdan davam edən münaqişənin ədalətli əsasda, həm erməni, həm də Azərbaycan xalqlarının mənafelərinə uyğun olaraq uzunmüddətli və tamformatlı nizamlanması üçün zəruri ilkin şərait yaradacaq.

Dağlıq Qarabağda təmas xəttində və Laçın dəhlizi boyunca atəşkəsə riayət edilməsinə nəzarət üçün Ermənistan və Azərbaycan tərəflərinin xahişi ilə rusiyalı sülhməramlı kontingent yerləşdirilib. Atəşkəs rejiminə riayət edilməsinin təmin olunması üçün səmərəli sistem yaradılıb. Rusiya sülhməramlılarının məsuliyyət zonasında 23 müşahidə məntəqəsi fəaliyyət göstərir, daha dörd əlavə post dəhliz boyunca hərəkətin təhlükəsizliyinə cavabdehdir. Hazırda regionda vəziyyət sakitdir.

Biz məcburi köçkünlərin və qaçqınların təhlükəsiz qayıtması üçün çox iş görürük. Noyabrın 14-dən keçən müddətdə 48 mindən çox insan artıq Qarabağa qayıdıb. Əsirlər və həlak olanların cəsədləri Rusiyanın vasitəçiliyi ilə dəyişdirilib.

Beynəlxalq Humanitar Müşahidə Mərkəzi uğurla fəaliyyət göstərir. Ölkələrimizin mütəxəssisləri bu mərkəz çərçivəsində yaşayış məntəqələrinin normal həyatının nizamlanması, dağıdılmış infrastrukturun bərpası, tarixi, dini və mədəni abidələrin qorunması ilə bağlı ümdə məsələləri həll edirlər. Mərkəzin əməkdaşları enerji və istilik təchizatının bərpası ilə məşğul olurlar.

Rusiyadan münaqişə zonasına 800 tondan artıq tikinti materialı, ümumilikdə, 1,5 milyon tondan çox humanitar yük çatdırılıb. Əhaliyə tibbi yardım göstərilir. 479 hektardan çox ərazi minalardan təmizlənib, 182 kilometr yol, 710 bina və tikili yoxlanılıb. Partlayış təhlükəsi olan 22 mindən çox əşya aşkar olunub və məhv edilib.

Fikrimcə, bu gün, ilk növbədə, ötən il 9 noyabr tarixli birgə Bəyanatda göstərilmiş əsas nizamlama istiqamətləri üzrə növbəti addımların razılaşdırılması vacib olardı. Mən Rusiya sülhməramlı kontingentinin fəaliyyəti, demarkasiya xətlərinin dəqiqləşdirilməsi, humanitar problemlərin həlli, mədəni irs obyektlərinin qorunması ilə bağlı məsələləri nəzərdə tuturam.

Regionda iqtisadi, ticari və nəqliyyat əlaqələrinin bərpası, sərhədlərin açılması məsələsi xüsusi diqqətə layiqdir. Nəzərdə tutulur ki, bu məsələlərlə Rusiya, Azərbaycan və Ermənistanın baş nazirlərinin müavinlərinin sədrliyi ilə üçtərəfli xüsusi İşçi qrup məşğul olacaq.

Hörmətli həmkarlar, ümidvar olduğumu bildirmək istərdim ki, bizim bugünkü danışıqlar işgüzar şəraitdə keçəcək, regionda möhkəm sülhün, təhlükəsizliyin və davamlı sosial-iqtisadi inkişafın təmin olunmasına xidmət edəcək. Şübhəsiz, biz hamımız bunda maraqlıyıq.

# İlham Əliyev və Vladimir Putinin ikitərəfli görüşü olub





Yanvarın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin ikitərəfli görüşü olub.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevi salamlayan Prezident **Vladimir PUTİN** dedi:

- Hörmətli İlham Heydər oğlu, Sizi Moskvada bir daha salamlayıram. Təklifimi qəbul etdiyinizə, Rusiyanın paytaxtına gəldiyinizə görə Sizə bir daha təşəkkür etmək istəyirəm.

Təbii ki, ötən ilin ən mühüm hadisəsi Dağlıq Qarabağda vəziyyətin ağır keçməsi olub. Lakin mən məmnun olduğumu bildirmək istəyirəm ki, biz hər halda döyüş əməliyyatlarına, qan tökülməsinə son qoya bildik. Bugünkü işin nəticələri barədə indicə dediyimiz kimi, sülhməramlı missiya öz funksiyasını yerinə yetirir və bütövlükdə vəziyyət tədricən normallaşır. Bu gün bizim imzaladığımız birgə Bəyanatın əsasını uzunmüddətli perspektivdə vəziyyətin nizamlanması istəyinin təşkil etməsi isə, fikrimcə, çox vacibdir.

Lakin Dağlıq Qarabağ nizamlanması ilə bağlı hadisələrin kontekstindən əlavə, bizdə ikitərəfli gündəlik də mövcuddur və bununla əlaqədar bizim Böyük Vətən müharibəsində Qələbənin 75 illiyini qeyd etməyimizlə bağlı işi bir daha vurğulamaq və təşəkkürümü bildirmək istərdim. Bu, bütün ölkələrimiz üçün, postsovet məkanındakı bütün ölkələr üçün çox əlamətdar hadisə idi. Ona görə ki, biz hamımız ovaxtkı ümumi vətənimizin azadlığı, müstəqilliyi uğrunda mübarizədə iştirak edirdik.

Bu gün Rusiya ilə Azərbaycan arasında münasibətlər çox uğurla inkişaf edir. Bu, ilk növbədə, əlaqələrin iqtisadi tərkib hissəsinə aiddir. Bizim birgə işimizin əksər istiqamətləri, o cümlədən iqtisadiyyat istiqaməti üzrə üst-üstə düşən maraqlarımız çoxdur. Mən çox ümid edirəm ki, bütövlükdə Cənubi Qafqazda vəziyyətin nizamlanması üzrə iş, şübhəsiz, indicə dediyim kimi, bizim ikitərəfli münasibətlərin də xeyrinə olacaq. Mən onu əsas götürürəm ki, bu nizamlama bizim həm iqtisadiyyatda, həm də humanitar sahədə daha sıx, daha sistemli münasibətlər qurmağımıza imkan verəcək.

Bu gün Moskvada olmağınıza görə Sizə bir daha təşəkkür etmək istəyirəm.

* * *

Prezident **İlham ƏLİYEV** dedi:

- Sağ olun, hörmətli Vladimir Vladimiroviç.

Rusiya paytaxtında olmaq mənə həmişə xoşdur. Dəvətə, həmçinin üçtərəfli görüşün keçirilməsi təşəbbüsünə görə Sizə bir daha təşəkkürümü bildirmək istərdim. Görüş çox faydalı və hesab edirəm ki, səmərəli oldu. Ona görə ki, görüşün yekunlarına əsasən biz Bəyanat imzaladıq. Bu, müharibə qurtarandan iki ay sonra imzalanmış və mahiyyət etibarilə keçən il baş verənlərə yekun vuran ikinci Bəyanatdır. Bu Bəyanat bizim regionda tamamilə yeni vəziyyət yaranmasına - nəqliyyat kommunikasiyalarının bərpasına yönəlib. Bizim üçün bu, böyük əhəmiyyət kəsb edir, çünki beləliklə, 30 ildən artıq müddətdən sonra Azərbaycan Ermənistan ərazisindən keçən nəqliyyat kommunikasiyaları vasitəsilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə əlaqə imkanına, Ermənistan da Azərbaycan ərazisindən keçməklə Rusiyaya, İrana dəmir yolu çıxışı imkanına malik olacaq. Biz həmçinin Naxçıvan Muxtar Respublikası ərazisindən keçməklə Türkiyə bazarına çıxış əldə edəcəyik, Türkiyənin və Rusiyanın dəmir yolu arteriyaları birləşəcək. Yeni bu Bəyanat çox böyük perspektivlər açır və əminəm ki, bizim bu gün yaratdığımız İşçi qrupu səmərəli işləyəcək, layihələrin reallaşdırılması barədə bizə vaxtaşırı məruzə edəcəkdir. Orada bir deyil, bir neçə layihə var. Əminəm ki, onlar hamısı reallaşacaq.

Hərbi əməliyyatların dayandırılmasında və 9 noyabr tarixli Bəyanatın imzalanmasında şəxsən iştirakınıza görə Sizə bir daha təşəkkürümü bildirmək istərdim. Hesab edirəm ki, Siz Rusiyanın lideri, həm Ermənistanın, həm də Azərbaycanın qonşusu kimi iradə, qətiyyət, müdriklik nümayiş etdirdiniz. Sizin təşəbbüsünüzlə baş tutmuş bugünkü görüş bir daha bu məsələyə necə böyük diqqət yetirməyinizə dəlalət edir. Təbii ki, bu, bizi çox sevindirir, çünki bütün regionda vəziyyətin müsbət inkişaf dinamikası çox cəhətdən Ermənistan ilə Azərbaycan arasında artıq tarixdə qalmış münaqişənin nizamlanmasından asılı olacaq. Tamamilə yeni, əvvəllər bəlkə də hətta təsəvvür edə bilməyəcəyimiz perspektivlər açılır.

İkitərəfli münasibətlərə gəldikdə isə, ötən ilin pandemiya ilə əlaqədar ağır keçməsinə baxmayaraq, hər halda bizdə əmtəə dövriyyəsinin azalması o qədər də çox olmayıb. Əminəm ki, bu il biz bütün bunları kompensasiya edəcəyik. Gündəlikdə o cümlədən iqtisadi sahədə çox geniş məsələlər durur. Siyasi sahədə Azərbaycan və Rusiya artıq çoxdandır ki, strateji tərəfdaşlardır. Müharibənin dayandırılmasında, habelə sülhməramlı missiyada Rusiyanın fəal iştirakı məhz ona dəlalət edir ki, bu uzunmüddətli strateji tərəfdaşlıq münasibətlərinin çox yaxşı dinamikası var.

Siz ölkələrimiz arasında humanitar əməkdaşlığı qeyd etdiniz. Bu əməkdaşlıq həmişə yüksək səmimiyyəti, səmərəliliyi və konkret nəticəyə yönəlməsi ilə fərqlənib. Bütün başqa sahələrdə də biz həm bu il, həm də sonrakı illərdə çox səmərəli əməkdaşlıq etmək əzmindəyik. Ermənistan ilə Azərbaycan arasındakı vəziyyət uzun illər boyu yaranıb və nəticə etibarilə həll edilib. Mən əminəm ki, erməni tərəfi 9 noyabr tarixli Bəyanatı təftiş etmək üçün heç bir cəhd göstərməyəcək, hər iki xalq gələcək barədə və barışıq haqqında fikirləşmək üçün özündə iradə və müdriklik tapacaq.

Dəvətə görə və bu təşəbbüsünüzə görə bir daha sağ olun.

**Vladimir PUTİN:** Sizə təşəkkür edirəm.

# Rusiya Prezidenti, Azərbaycan Prezidenti və Ermənistanın baş naziri mətbuata bəyanatla çıxış ediblər

AZƏRTAC xəbər verir ki, Rusiya Prezidenti Vladimir Putin, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında keçirilən üçtərəfli görüşdən sonra Rusiya Prezidenti, Azərbaycan Prezidenti və Ermənistanın baş naziri mətbuata bəyanatla çıxış ediblər.



## Rusiya Prezidenti Vladimir Putinin bəyanatı

- İlk növbədə, həmkarlarıma - həm Azərbaycan Prezidentinə, həm də Ermənistanın baş nazirinə bu gün Moskvaya gəlməyə, bizim keçən ilin 9 noyabr tarixli sülh razılaşmamızın şərtlərinin icrası ilə bağlı məsələləri müzakirə etmək üçün görüşməyə razılıq verdiklərinə görə təşəkkürümü bildirmək istəyirəm.

Bu razılaşmanın şərtlərinə ümumilikdə riayət edildiyi, heç bir ciddi insidentin qeydə alınmadığı qənaətinə gəldik.

Rusiyanın sülhməramlı qrupu hər iki tərəf qarşısındakı öhdəliklərini tam şəkildə yerinə yetirir.

Bugünkü görüşümüzün əvvəlində dediyim kimi, 48 mindən çox köçkün və qaçqın artıq Dağlıq Qarabağa qayıdıb. İnfrastruktur, energetika, yaşayış binaları, sosial infrastrukturun bərpası üçün davamlı iş aparılır.

Bugünkü görüşü son dərəcə vacib və faydalı hesab edirəm, çünki razılığa gələ bildik və bölgədəki vəziyyətin inkişafına dair birgə Bəyanat imzaladıq. İqtisadi əlaqələrin qurulması, infrastruktur layihələrinin inkişafı üzrə konkret addımları nəzərdə tuturam.

Bu məqsədlə üç hökumətin - Azərbaycan, Ermənistan və Rusiya baş nazirləri müavinlərinin rəhbərlik edəcəyi İşçi qrupu yaradılacaq. Yaxın zamanda onlar işçi ekspert alt qrupları yaradacaq, regionun nəqliyyat infrastrukturu və iqtisadiyyatının inkişafı üzrə konkret planlar təqdim edəcəklər.

Əminəm ki, bu razılaşmaların icrası həm Ermənistan, həm də Azərbaycan xalqlarına fayda verəcək və heç şübhəsiz, bütövlükdə regiona, deməli, Rusiya Federasiyasının mənafeyinə də fayda verəcək. Sağ olun.

## Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatı

- Hörmətli Vladimir Vladimiroviç, ilk növbədə, bu dəvətə və bu görüşün keçirilməsi təşəbbüsünüzə görə Sizə təşəkkür etmək istərdim. Mən də Sizin fikrinizə şərikəm ki, bizim regionun bundan sonrakı davamlı və təhlükəsiz inkişafını təmin etmək üçün görüş çox vacib idi.

Atəşkəs elan ediləndən sonra iki ay keçib və noyabrın 9-10-da Bəyanatı imzalamış üç ölkənin liderlərinin bu gün Moskvada toplaşması onu göstərir ki, biz nəticə əldə etmək, sentyabrda, noyabrda baş vermiş hadisələrə yekun vurmaq əzmindəyik. Bu gün imzalanmış bəyanat bizim niyyətlərimizə dəlalət edir, ona görə ki, hərbi əməliyyatların dayandırılmasının yekunlarına dair bəyanatın bir bəndi nəqliyyat kommunikasiyalarının bərpasına aid idi. Bu sahə regionun inkişafına böyük dinamizm gətirə, təhlükəsizliyi möhkəmlədə bilər. Ona görə ki, nəqliyyat kommunikasiyalarının açılması Azərbaycan, Ermənistan, Rusiya xalqlarının, bizim qonşularımızın mənafelərinə cavab verir. Əminəm ki, qonşu ölkələr də bizim regionda nəqliyyat dəhlizlərinin və nəqliyyat arteriyalarının şaxələndirilmiş şəbəkəsinin yaradılmasına fəal qoşulacaqlar. Biz bundan sonra da qısa müddətdə səmərə verən və nəticəyə yönəlmiş fəaliyyət sahələrini tapmağa çalışmalıyıq.

Bütövlükdə, demək istərdim ki, 9 noyabr, Azərbaycan vaxtı ilə 10 noyabr tarixli birgə Bəyanat uğurla həyata keçirilir. Bu Bəyanatın bəndlərinin çox hissəsi yerinə yetirilib. Rusiya sülhməramlı missiyası öz işini səmərəli şəkildə yerinə yetirir və iki ay ərzində kiçik insidentlər istisna olmaqla narahatlıq üçün ciddi əsas olmayıb. Bütün bunlar belə əminlik yaradır ki, Vladimir Vladimiroviçin dediyi kimi, Dağlıq Qarabağ münaqişəsi keçmişdə qalıb və biz gələcək barədə, qonşular kimi birlikdə necə yaşamaq, nəqliyyat arteriyalarının açılması məsələlərini həll etməyə necə çalışmaq və gələcəkdə regional sabitliyi və təhlükəsizliyi möhkəmlətmək haqqında düşünməliyik.

Vladimir Vladimiroviç, dəvətə görə Sizə bir daha təşəkkürümü bildirirəm və hesab edirəm ki, görüş çox faydalı və səmərəli olub. Sağ olun.

## Ermənistanın baş naziri Nikol Paşinyanın bəyanatı

- Hörmətli Vladimir Vladimiroviç.

İlk növbədə, icazə verin, bizim regionda sabitliyin və təhlükəsizliyin bərpa edilməsi, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üçün göstərdiyiniz səylərə görə Sizə təşəkkür edim. Təəssüf ki, bu münaqişə hələ nizamlanmayıb. Münaqişə qalır. Əlbəttə, biz atəşkəs rejimini təmin etməyə nail olmuşuq, lakin hələ həll edilməli olan çox məsələ qalır. Bu məsələlərdən biri Dağlıq Qarabağın statusu məsələsidir. Əlbəttə, Ermənistan ATƏT-in Minsk qrupunun həmsədrliyi çərçivəsində, o cümlədən bu məsələyə dair danışıqları davam etdirməyə hazırdır. Təəssüf ki, bu günə qədər biz hərbi əsirlər məsələsini həll edə bilməmişik və bu, ən həssas və ağrılı məsələdir. Ona görə ki, bu, humanitar məsələdir. Biz bu istiqamətdə işi davam etdirmək barədə razılığa gəlmişik. Lakin hesab edirik ki, konkret olaraq bizim birgə Bəyanatın 8-ci bəndi, təəssüf ki, tam yerinə yetirilmir. Ümidvaram ki, biz qısa müddətdə konkret qərara gələ biləcəyik. Lakin deməliyəm ki, bizim bu gün imzaladığımız bəyanat, həqiqətən, çox vacibdir. Gizlətmirəm, bu bəyanatdakı razılaşmaların reallaşması bizim regionun iqtisadi obrazını və simasını, sadəcə, dəyişə bilər. İqtisadi yeniliklər təhlükəsizliyin daha etibarlı qarantiyalarına gətirib çıxara bilər və biz, əlbəttə, bu istiqamətdə konstruktiv iş aparmağa hazırıq. Lakin dediyim kimi, təəssüf ki, bütün məsələləri bir görüş ərzində həll etmək mümkün deyil. Ümidvaram ki, biz daha irəli gedəcəyik. Bir daha vurğulamaq istəyirəm, indiki məqamda bizim üçün ən başlıca məsələ humanitar məsələlər - bizim 9, yaxud 10 noyabr tarixli birgə Bəyanatın 8-ci bəndi ilə nəzərdə tutulmuş hərbi əsirlərin dəyişdirilməsi məsələləridir.

**Vladimir PUTİN:** Bütövlükdə bugünkü konstruktiv işə görə həmkarlarıma bir daha təşəkkür etmək istəyirəm. Təşəkkür edirəm.

# Prezident İlham Əliyevin Rusiyaya işgüzar səfəri başa çatıb

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına işgüzar səfəri yanvarın 11-də başa çatıb.

# “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alır:**

“Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 7, maddə 599; 2010, № 4, maddə 276, № 10, maddə 841; 2013, № 11, maddə 1302; 2014, № 4, maddə 342; 2015, № 8, maddə 903, № 12, maddə 1439; 2016, № 2 (II kitab), maddə 221; 2017, № 2, maddə 140, № 12 (I kitab), maddə 2211; 2018, № 1, maddə 22, № 12 (I kitab), maddələr 2510, 2517; 2019, № 3, maddə 374, № 8, maddə 1379; 2020, № 6, maddə 663) 26.4-cü maddəsində “müvafiq icra hakimiyyəti orqanı” sözləri “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 noyabr 2020-ci il*

# “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli 209-VIQD nömrəli Qanununun tətbiqi və “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 4 iyul tarixli 792 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli 209-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikası Qanununun 26.4-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 26.4-cü maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, təhlükəli yüklərin daşınmasına münasibətdə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Bakı, Sumqayıt və Gəncə şəhərlərinin inzibati ərazisində avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili sərnişindaşımaya və taksi minik avtomobilləri ilə sərnişindaşımaya münasibətdə, müvafiq olaraq, Bakı Nəqliyyat Agentliyi, Sumqayıt və Gəncə şəhər icra hakimiyyətlərinin başçıları yanında avtomobil nəqliyyatı ilə sərnişindaşıma idarələri nəzərdə tutulur.

2. “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 4 iyul tarixli 792 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 7, maddə 610; 2009, № 10, maddə 779; 2016, № 4, maddə 661, № 6, maddə 1064, № 11, maddə 1840; 2017, № 6, maddə 1083; 2018, № 12 (I kitab), maddə 2600; 2019, № 5, maddə 838; № 8 maddə 1408; 2020, № 5, maddə 544) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1-ci bəndə “21.1-ci” sözlərindən sonra “, 26.4-cü” sözləri əlavə edilsin;

2.2. 2.5-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.6-cı bənd əlavə edilsin:

“2.6. həmin Qanunun 26.4-cü maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, təhlükəli yüklərin daşınmasına münasibətdə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Bakı, Sumqayıt və Gəncə şəhərlərinin inzibati ərazisində avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili sərnişindaşımaya və taksi minik avtomobilləri ilə sərnişindaşımaya münasibətdə, müvafiq olaraq, Bakı Nəqliyyat Agentliyi, Sumqayıt və Gəncə şəhər icra hakimiyyətlərinin başçıları yanında avtomobil nəqliyyatı ilə sərnişindaşıma idarələri nəzərdə tutulur.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 yanvar 2021-ci il*

# V.A.Muradovun “Azərxalça” Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Vidadi Aydın oğlu Muradov “Azərxalça” Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 yanvar 2021-ci il*

# Azərbaycan, Türkiyə və Pakistan xarici işlər nazirlərinin üçtərəfli görüşü keçiriləcək

Cari il yanvarın 13-14-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovun rəhbərlik etdiyi nümayəndə heyəti Pakistan İslam Respublikasında rəsmi səfərdə olacaq.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, səfər çərçivəsində yanvarın13-də Azərbaycan Respublikasının, Türkiyə Respublikasının və Pakistan İslam Respublikasının xarici işlər nazirlərinin ikinci üçtərəfli görüşünün keçirilməsi nəzərdə tutulur. Yanvarın 14-də isə Azərbaycanın xarici işlər nazirinin Pakistanın yüksək səviyyəli rəsmiləri ilə ikitərəfli görüşlərinin keçirilməsi planlaşdırılır.

# Şəhid ailələri üzvlərindən 2700-dən çox şəxsə sosial ödənişlər təyin edilib




Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondu tərəfindən Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinə Prezidentin aylıq təqaüdünün, müavinət və pensiyaların təyinatı işləri davam edir.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, fond artıq 1100-dən çox şəhidin 2700-dən çox ailə üzvünə həmin sosial təminat növləri üzrə sosial ödənişlərin təyinatını həyata keçirib. Hazırda da davam edən proses şəhid ailələrinin üzvlərinin heç bir müraciəti olmadan, elektron qaydada, proaktiv şəkildə aparılır.

Aparılmış təyinatlar barədə şəhid ailələri məlumatlandırılır. Nazirliyin vəzifəli şəxslərinin şəhid ailələri ilə mütəmadi görüşləri də davam edir. Bir çox hallarda bu görüşlər zamanı təqaüd kartları şəhid ailələrinə elə öz ünvanlarında təqdim edilir.

# Müharibə nəticəsində psixoloji problemlər yaşayan vətəndaşlarımız FHN-in qaynar xətti vasitəsilə psixoloqlara müraciət edə bilərlər

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunması uğrunda aparılan 44 günlük Vətən müharibəsində əsgərlərimizin erməni təcavüzünə və terroruna qarşı rəşadətlə vuruşaraq əldə etdiyi Şanlı Qələbə müstəqillik tariximizin ən şərəfli və şanlı səhifələrindəndir. Lakin müharibənin törətdiyi fəsadlar qazilərimizə, o cümlədən doğmalarını itirən şəhid ailələrinə, terror aktlarından fiziki-mənəvi zərər görmüş insanlara mənfi təsirini göstərir, onlarda posttravmatik stres pozuntusu, depressiya, ünsiyyətdə çətinlik, yuxusuzluq, suisidal fikirlər, aqressiya və digər halların yaranmasına da səbəb olur.

Fövqəladə Hallar Nazirliyinin (FHN) Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, vətəndaşlarımızın həm fiziki, həm də psixi sağlamlığının qorunması milli təhlükəsizliyimizin ən aktual məsələlərindəndir. Bu məqsədlə FHN-in 112 - qaynar telefon xətti vasitəsilə vətəndaşlarımıza təcili psixoloji yardımın göstərilməsi davam etdirilir. Müharibənin fəsadları nəticəsində psixoloji problemlər yaşayan vətəndaşlarımız qaynar xəttə zəng edərək fasiləsiz rejimdə fəaliyyət göstərən psixoloqlara müraciət edə bilərlər. Bununla yanaşı, peşəkar psixoloji yardıma ehtiyacı olan insanların səmərəli reabilitasiyasının təşkil olunması məqsədilə Türkiyə Respublikasından 20 mütəxəssis-psixoloq dəvət olunub. Türkiyəli mütəxəssislərin fəaliyyəti barədə yaxın zamanda ictimaiyyətə əlavə məlumat veriləcək.

FHN cəmiyyətimizin əsas sütunlarından olan həmrəylik və mərhəmət hisslərinin bir-birimizə dəstək olmağa, müharibənin törətdiyi fəsadları tezliklə aradan qaldırmağa kömək göstərəcəyinə ümid edir.

# Səfərbərlikdən tərxis edilmiş şəxslərin qəbulu və müraciətlərinə baxılması üzrə yaradılan komissiya fəaliyyətə başlayıb



Müdafiə nazirinin müvafiq əmrinə əsasən, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində səfərbərlikdən tərxis edilmiş şəxslərin qəbulunun keçirilməsi, onların müraciətlərinə vaxtında və obyektiv baxılmasının təmin edilməsi məqsədilə yaradılan komissiya yanvarın 11-dən fəaliyyətə başlayıb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, komissiya vətəndaşlar tərəfindən daxil olan müraciətlərin obyektiv və vaxtında araşdırılması, həmçinin həll olunması istiqamətində zəruri tədbirlər görəcək.

# Zəfərimizə böhtan atanlar

*“İkinci Qarabağ müharibəsinin Azərbaycanın möhtəşəm qələbəsi ilə başa çatması, işğal edilmiş torpaqlarımızın 30 ildən sonra geri qaytarılması xalqımızın tarixinin ən şərəfli anlarındandır. Ali Baş Komandan İlham Əliyevin müdrik siyasəti və sərkərdə qətiyyəti sayəsində Azərbaycan məğlub ölkədən qalib ölkəyə çevrildi. Tam məsuliyyətlə demək olar ki, Qarabağ münaqişəsinin ədalətli həll olunması 2020-ci ilin başlıca hadisəsi kimi tarixə düşmüşdür. Bütün dünya Azərbaycan dövlətinin gücünün, onun Silahlı Qüvvələrinin qüdrətinin, xalqımızın qəhrəmanlıq əzminin şahidi oldu”.*



AZƏRTAC xəbər verir ki, bu fikirlər Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının sədr müavini - icra katibi Əli Əhmədovun “Facebook” səhifəsindəki paylaşımda yer alıb.

Paylaşımda deyilir: “Müharibədə böyük şücaət nəticəsində qazanılan zəfər xalqımızın qürur və iftixar mənbəyi kimi hər birimiz üçün əziz və qiymətlidir. Lakin müharibə başa çatar-çatmaz Əli Kərimli-Cəmil Həsənli cütlüyü və onların ətrafındakılar qələbəmizi təftiş etməyə, onun üzərinə kölgə salmağa başladılar. Qələbə sevincinin yaratdığı izdihamı, yüz minlərin iştirak etdiyi küçə yürüşlərini öz gözləri ilə görən sözügedən cütlüyün davranışını anlamağa insan çətinlik çəkir. Əvvəla, bütün xalqın və onun dostlarının bayram etdiyi qələbəyə sevinməmək özünü həmin xalqın nümayəndəsi kimi dərk etməmək nümunəsidir. İkincisi, heç kimə sirr deyildir ki, Ermənistan və onun havadarları tərəfindən Qarabağın işğal olunmasında AXC-Müsavat hakimiyyətinin ərazilərimizi qoruya bilməməsi əsas amillərdən biri olmuşdur. Dövlətin və xalqın bütün imkanlarını erməni təcavüzkarlarına müqavimət göstərmək naminə səfərbər etmək əvəzinə, cəbhəçi - müsavatçıların hakimiyyətdaxili çəkişmələr aparması ölkəyə baha başa gəldi. Ermənistanın işğalçı siyasətinə, hərbi cinayətlərinə və törətdiyi vəhşiliklərə heç bir halda haqq qazandırmadan, AXC-Müsavat hakimiyyətinin ölkənin ərazisini qoruya və əhalinin təhlükəsizliyini təmin edə bilməməsi də açıq qeyd edilməlidir. Erməni təcavüzü ilə əlaqədar müharibə aparmağa məcbur olan ölkənin Prezidenti və Ali Baş Komandanı Əbülfəz Elçibəyin iyun ayının 18-də Bakını tərk edərək Ordubadın Kələki kəndinə qaçması, onun hökumət nümayəndələrinin isə vəzifələrini dondurmaqları barədə şübhəli bəyanatları dövlətin müdafiə qüdrətinə vurulan ən ağır zərbə idi. Onların bilərəkdən daxili siyasi böhranı dərinləşdirməyə yönəldilmiş hərəkətləri nəticəsində Dağlıq Qarabağ ətrafında rayonların işğal edilməsinə, yüz minlərlə insanın didərgin düşməsinə səbəb oldu. Buna görə də Azərbaycan tarixinin ən acı faciələrindən biri sayılan Qarabağın Ermənistan tərəfindən işğalının məsuliyyəti AXC-Müsavat üzərinə düşür. Bu məsuliyyətin adı ölkənin müdafiəsini təşkil edə bilməmək və daxili böhranı qəsdən ağırlaşdırmaqla düşmənin Azərbaycan torpaqlarını işğal etməsinə imkan yaratmaqdır. Bir sözlə, milli xəyanətdir.

Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğal olunmasında bacarıqsızlıqları və cinayət sayılacaq hərəkətləri ilə ciddi məsuliyyət yükü daşıyan AXC-Müsavat hakimiyyətinin təmsilçiləri olmuş Əli Kərimli və Cəmil Həsənlidən Vətən müharibəsinin parlaq nəticələrinə gözlənilən ən doğru reaksiya onların bağışlanmaz səhvinin və günahının nəticəsində işğal olunmuş Qarabağın azad edilməsinə hamıdan çox məmnun olmaq, qələbəmizin layiqli qiymətini vermək ola bilərdi. Lakin cütlük gözləniləninin tam əksini nümayiş etdirərək adətlərinə uyğun hərəkətlərini davam etdirməyə üstünlük verirlər.

Əli Kərimli-Cəmil Həsənli cütlüyünün çox da uzaqda olmayan tarixi saxtalaşdırmaq, öz günahlarını bugünkü iqtidarın ayağına yazmaq cəhdləri heç kimə sirr deyil. İndi isə onlar İkinci Qarabağ müharibəsində möhtəşəm zəfərimizi təftiş etməklə onun tarixi əhəmiyyətini azaltmağa çalışırlar. 1993-cü ildə müharibə edən ölkədə bilərəkdən hakimiyyət böhranını dərinləşdirməklə bir neçə rayonun erməni silahlı qüvvələri tərəfindən işğal edilməsinə dolayısı yolla rəvac vermək nə dərəcədə xəyanət idisə, Ordumuzun şanlı zəfərinin tarixi əhəmiyyətini azaltmaq cəhdləri də o dərəcədə ziyanlı və pozuculuq fəaliyyətidir. Söhbət bilərəkdən, qəsdən xalqımızın qürur və iftixar mənbəyi olan 8 noyabr Zəfər gününün üzərinə kölgə salmaqdan, Qarabağın azadlığı uğrunda şəhid olmuş döyüşçülərimizin ruhuna hörmətsizlikdən gedir. Möhtəşəm zəfərimizin üzərinə kölgə salmaq, əslində, onların qəhrəmanlığına, şücaətinə, şəhidliyinə şübhə toxumu səpmək qədər yolverilməz və bağışlanmaz günahdır.

Vətən müharibəsində qazanılan şanlı qələbənin tarixi rolu və əhəmiyyətini azaltmaq üçün sözügedən cütlük yalan və şayiələrlə, hadisələrin mahiyyətini təhrif etməklə postmüharibə reallıqları barədə insanlarda fərqli fikirlər yaratmağa səy göstərir. Onların əsassız iddialarla müharibənin başlıca nəticəsi kimi Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin tam bərpa olunması faktına şübhə yaratmağa çalışmaları, 10 noyabr razılaşmasının şərtlərini bilərəkdən yanlış yöndə şərh etmələri xalqın qələbəyə inamına şübhə toxumu səpmək məqsədi daşıyaraq Kərimli-Həsənli cütlüyünün antimilli xislətini bir daha sübuta yetirir.

Görünən budur ki, 30 illik işğaldan sonra Qarabağın azad edilməsinin xalqımızda yaratdığı ruh yüksəkliyinə, xalq-iqtidar birliyinin daha da güclənməsinə, Prezident İlham Əliyevə əhalinin hörmət və ehtiramının qat-qat yüksəlməsinə Əli Kərimli-Cəmil Həsənli cütlüyü həsəd aparır, çoxdan itirdikləri siyasi perspektivlərinin tamam əridiyini görür və bütün bunların əvəzində möhtəşəm zəfərimizin üzərinə kölgə salmaqla xəstə təxəyyüllərinə təsəlli verməyə çalışırlar. Ancaq nə etməli, bu, onların seçimidir. Həmişə olduğu kimi, bu seçimləri də nə milli maraqlarımıza uyğundur, nə də insanların zəfər ovqatını əks etdirir. Onlar yenə də mənsub olduğu xalqla eyni cür düşünmək, eyni sevinci yaşamaq yolunu tuta bilmədilər. Bəlkə də heç istəmirlər. Şübhə yoxdur ki, belə təfəkkür və davranış tərzi sözügedən cütlüyün və onların ətrafında toplaşanların siyasi faciəsi, mənəvi iflasıdır”.

# Azərbaycanın və Ermənistanın təhlükəsizlik və sərhəd xidmətləri rəhbərlərinin növbəti görüşləri keçirilib

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyev və Ermənistan Respublikası Milli Təhlükəsizlik Xidmətinin direktoru Armen Abazyan arasında 2021-ci il yanvarın 8-də Azərbaycan-Ermənistan dövlət sərhədinin Naxçıvan Muxtar Respublikasından keçən hissəsində neytral ərazidə və yanvarın 10-da isə Ermənistanın Sünik vilayətinə aid həmsərhəd Vorotan və Şurnux yaşayış məntəqələrində görüşlər keçirilib.



AZƏRTAC Dövlət Təhlükəsizliyi Xidmətinin saytına istinadla xəbər verir ki, sonuncu görüşdə Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev və müqabil ölkənin sərhəd xidmətinin rəhbərliyi iştirak edib.

Görüşlərdə dövlət sərhədlərində baş vermiş insidentlərin birgə araşdırılması, Azərbaycan Respublikasının Dağlıq Qarabağ və işğaldan azad olunmuş ərazilərinin təhlükəsizliyi, döyüş zonalarında meyitlərin basdırıldığı yerlərin müəyyənləşdirilməsi və əsirlərin dəyişdirilməsi, həmçinin Birinci Qarabağ və Vətən müharibəsində itkin düşmüş, girov götürülmüş şəxslərin talelərinin aydınlaşdırılması ilə bağlı məsələlər müzakirə olunub. Eyni zamanda aparılmış danışıqlarda 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata əsasən, əldə edilmiş atəşkəsə davamlı riayət edilməsinin hər iki xalqın, o cümlədən Qarabağın azərbaycanlı və erməni icmalarının maraqlarına və təhlükəsizliyinə xidmət etdiyi vurğulanıb.

# Müddətdən artıq həqiqi hərbi xidmət keçmək istəyən vətəndaşların sənədlərinin qəbuluna başlanılıb

*“Azərbaycan Ordusunda müddətdən artıq həqiqi hərbi xidmətə könüllü daxil olmaq arzusunda olan, ən azı ümumi orta təhsilli, qanunla müəyyənləşdirilmiş müddətli həqiqi hərbi xidmətini başa vurmuş, 30 yaşınadək hərbi vəzifəlilərin müraciət və sənədlərinin qəbuluna başlanılıb”.*



Bunu Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəisi polkovnik Vaqif Dərgahlı AZƏRTAC-a açıqlamasında deyib.

V.Dərgahlı bildirib ki, sənədlərin qəbulu birliklərin, qoşun növlərinin və hərbi hissələrin qərargahlarında fəaliyyət göstərən qəbul komissiyalarında aparılır və bu proses yanvarın 30-dək davam edəcək. Kursu müvəffəqiyyətlə başa vuran şəxslərlə üç il müddətinə bağlaşma imzalanır və onlar ixtisaslarına uyğun müvafiq vəzifələrə təyin olunurlar. Vətəndaşlar qəbulla bağlı ətraflı məlumatı Müdafiə Nazirliyinin rəsmi internet saytından (**mod.gov.az**) əldə edə bilərlər.

# Dövlət vəsaitləri hesabına maliyyələşdirilən tikinti obyektləri üçün smeta-normativ və qiymətqoyma sistemi təkmilləşdirilir

*Nazirlər Kabineti dövlət vəsaitləri hesabına maliyyələşdirilən tikinti obyektləri üçün smeta-normativ və qiymətqoyma sisteminin təkmilləşdirilməsi ilə əlaqədar bəzi məsələlər barədə qərar qəbul edib.*

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirib ki, qəbul edilmiş qərar Azərbaycan Respublikasının ərazisində dövlət vəsaitləri hesabına maliyyələşdirilən tikinti obyektlərinin qiymətləndirilməsi üçün 2021-ci il oktyabrın 1-dən daha dəqiq hesab olunan resurs metodunun tətbiq ediləcəyini və həmin metodun tətbiq edilməsi ilə bağlı elektron informasiya bazasının yaradılması üçün aidiyyəti dövlət orqanları tərəfindən həyata keçirilməsi tələb olunan tədbirləri müəyyən edir.

Qərar dövlət vəsaitləri hesabına maliyyələşdirilən tikinti obyektləri üçün smeta-normativ və qiymətqoyma sisteminin təkmilləşdirilməsini nəzərdə tutur.

Bu qərarla yaradılan yeni mexanizm ölkənin tikinti sektorunda və dövlət sifarişlərinin həyata keçirilməsi prosesində şəffaflığın təmin olunmasına, neqativ hallara imkan verən boşluqların aradan qaldırılmasına xidmət edəcək, bürokratik işi azaldacaq və prosesi sadələşdirəcək.

Bununla yanaşı, Türkiyə Respublikasının mövcud təcrübəsindən istifadə etməklə yeni smeta-normativ və qiymətqoyma sisteminin yaxın 2 il ərzində təkmilləşdirilməsi məqsədilə müvafiq normativ-metodik sənədlərin hazırlanması və yeni yaradılacaq elektron informasiya sisteminə məlumatların avtomatik ötürülməsi üçün həyata keçirilməsi tələb olunan tədbirlər və onların icraçıları müəyyən edilib.

## Pakistan Hərbi Hava Qüvvələrinin nümayəndə heyəti Azərbaycanda işgüzar səfərdədir



Pakistan İslam Respublikasının Hərbi Hava Qüvvələrinin (HHQ) komandanı, aviasiya marşalı Mücahid Anvar Xanın rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizdə işgüzar səfərdədir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Pakistan nümayəndə heyəti Şəhidlər xiyabanını ziyarət edərək ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş vətəndaşlarımızın məzarları üzərinə əklil və gül dəstələri qoyub, xatirəsini ehtiramla anıb.

## Azərbaycan ilə Pakistan arasında hərbi əlaqələrin genişləndirilməsi məsələləri müzakirə edilib



Yanvarın 11-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə işgüzar səfərdə olan Pakistan İslam Respublikasının Hərbi Hava Qüvvələri (HHQ) komandanı aviasiya marşalı Mücahid Anvar Xanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə xalqlarımız arasında ənənəvi dostluq və qarşılıqlı etimadın, eləcə də Azərbaycan-Pakistan əlaqələrinin yüksələn xətlə inkişaf etməsindən və strateji tərəfdaşlığın səviyyəsindən məmnunluq ifadə olunub.

Pakistan Hərbi Hava Qüvvələrinin komandanı, öz növbəsində, Vətən müharibəsində qazanılan qələbə münasibətilə Azərbaycan xalqını təbrik edib, şəhid olan hərbi qulluqçulara və mülki şəxslərə Allahdan rəhmət, yaralılara isə şəfa diləyib.

Tərəflər Azərbaycan ilə Pakistan arasında hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində, o cümlədən iki ölkənin hərbi hava qüvvələri arasında əməkdaşlığın inkişaf etdirilməsi və əlaqələrin daha da genişləndirilməsi məsələlərini müzakirə ediblər.

## Azərbaycan ilə ISESCO arasında təhsil sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub

Yanvarın 11-də təhsil naziri Emin Əmrullayev İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ISESCO) Baş direktoru Salim bin Məhəmməd əl-Malikin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, görüşdə ISESCO ilə təhsil sahəsində əlaqələrin cari vəziyyəti və gələcək əməkdaşlıq perspektivləri müzakirə edilib. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv dövlətlərin vətəndaşları üçün təsis edilən təhsil qrantı çərçivəsində, ümumilikdə, 51 nəfərin ölkəmizin ali təhsil müəssisələrində təhsil almaq hüququnu qazanması qeyd olunub.

Nazir həmçinin ötən ilin 27 sentyabr tarixindən etibarən 6 həftədən artıq davam etmiş Ermənistan silahlı qüvvələrinin hücumları nəticəsində 10 şagirdin həlak olduğunu, 16 şagirdin yaralandığını, 54 təhsil müəssisəsinin isə müxtəlif dərəcəli dağıntılara məruz qaldığını qonaqların diqqətinə çatdırıb. Təhsil naziri dəymiş zərərin aradan qaldırılması istiqamətində müvafiq addımların atıldığını vurğulayıb. Qeyd edək ki, Azərbaycana səfəri çərçivəsində Salim bin Məhəmməd əl-Malikin işğaldan azad olunmuş ərazilərə səfər etməsi nəzərdə tutulur.

## Heydər Əliyev Sarayının təşkilatçılığı ilə yeni layihəyə start verilib

Heydər Əliyev Sarayının təşəbbüsü və təşkilatçılığı ilə "Bu günün rəssamı" layihəsinə start verilib.

AZƏRTAC xəbər verir ki, layihənin ideya müəllifi, Heydər Əliyev Sarayının direktoru Ramil Qasımovun əsas məqsədi vətənpərvərliyin tablolarda tərənnüm olunması, gənc və istedadlı rəssamların təbliği və bacarıqlarının inkişaf etdirilməsidir.



Layihənin ilk iştirakçıları Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Rəssamlıq fakültəsinin tələbələri olublar. Gənc rəssamlar yaratdıqları əsərlərdə Vətənə, müzəffər Ordumuza və şanlı Azərbaycan əsgərlərinə olan məhəbbət və sevgilərini ifadə ediblər. Vətən müharibəsində şəhidlik zirvəsinə yüksələn əsgərlərimizin, qazilərimizin, bir sözlə, şanlı əsgərlərimizin qəhrəmanlıqlarını tablolarında tərənnüm ediblər.

Qeyd edək ki, koronavirus pandemiyası bitdikdən sonra layihə daha geniş miqyasda davam edəcək və layihə çərçivəsində müasir Azərbaycan rəssamlarının sərgiləri nümayiş etdiriləcək.

## İşğaldan azad edilən ərazilərdəki qoruq və yasaqlıqlar bərpa olunacaq

Yanvarın 11-i Dünya Qoruqlar və Milli Parklar Günüdür. Bu tarixin xüsusi mühafizə olunan təbiət ərazilərinə həsr edilməsi təsadüfi deyil. 1917-ci il yanvarın 11-də dünyada ilk dəfə Rusiyada nadir heyvanların qorunması məqsədilə Baykal gölü üzərində Barquzin Dövlət Qoruğu yaradılıb. Həmin təqvim Dünya Vəhşi Təbiət Fondunun təşəbbüsü ilə 1997-ci ildən qeyd olunur. Azərbaycanda da ölkənin nadir təbiətinin qorunması məsələlərinə böyük diqqət yetirilir.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bu barədə ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov Hirkan Milli Parkında jurnalistlərə müsahibəsində məlumat verib.

Azərbaycanda 10 milli park, 10 dövlət təbiət qoruğu və 24 dövlət təbiət yasaqlığının mövcud olduğunu vurğulayan nazir müavini, ölkəmizdə xüsusi mühafizə olunan təbiət ərazilərinin ümumi sahəsinin 893 min hektara bərabər olduğunu diqqətə çatdırıb.

O bildirib ki, ölkəmizdə ətraf mühitin mühafizəsi sahəsində prioritet istiqamətlərdən biri zəngin biomüxtəlifliyin, nadir təbiət obyektlərinin qorunması və gələcək nəsillərə çatdırılmasıdır: "Azərbaycanda xüsusi mühafizə olunan təbiət ərazilərinin yaradılmasına 1910-cu ildən başlanılıb. 3500 hektar sahədə yaradılmış Eldar şamı Botaniki Yasaqlığı Azərbaycanın, eləcə də Cənubi Qafqazın ilk xüsusi mühafizə olunan təbiət ərazisi hesab edilir. İlk qoruq 1925-ci ildə yaradılmış Göygöl Dövlət Təbiət Qoruğu, ilk milli park isə 2003-cü ildə yaradılmış Həsən Əliyev adına Zəngəzur Milli Parkıdır. 2018-ci ildə yaradılan ən sonuncu milli park isə 100 hektaradək ərazini əhatə edən Qızılağac Milli Parkıdır. Ötən ilin sentyabr ayında Prezident İlham Əliyevin imzaladığı sərəncama əsasən yaradılan park, xüsusi mühafizə olunan ərazilərin hər biri öz unikallığı və ekosistemin unikallığı ilə bir-birindən fərqlənir."

Azad edilmiş torpaqlarda dövlət təbiət qoruqları və yasaqlıqların olduğunu qeyd edən Vüqar Kərimov daha sonra deyib: "İki dövlət qoruğumuz, dörd yasaqlığımız işğaldan azad olunmuş Qarabağ bölgəsinin ərazisindədir. Hazırda faktaraşdırıcı qruplar həmin ərazilərdə yasaqlıqlara, qoruqlara, biomüxtəlifliyə dəymiş ziyanın hesablanması ilə bağlı monitorinqlər aparırlar. Növbəti dövrlərdə həmin qoruq və yasaqlıqların bərpası ilə bağlı işlər həyata keçiriləcək."

Dünya Qoruqlar və Milli Parklar Günü ili əlaqədar Qızılağac və Hirkan Milli parklarının əməkdaşları ilə görüşən nazir müavini onları əlamətdar gün münasibətilə təbrik edib, həmkarlarına yeni ildə görüləcək işlər və qarşıda duran vəzifələrlə bağlı tapşırıq və tövsiyələrini çatdırıb.

## Sahibkarlıq fəaliyyəti ilə qanunsuz məşğul olan vəzifəli şəxslərin əməlləri ifşa edilib

Ölkəmizdə yaradılmış azad və rəqabətli bazar iqtisadiyyatı mühitindən, habelə dövlətin ədalətli fiskal siyasətindən sui-istifadə edən sahibkarlıq subyektləri tərəfindən yol verilən korrupsiya hüquqpozmalarına qarşı mübarizə istiqamətində prokurorluq orqanlarının kompleks tədbirləri davam etdirilir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, belə tədbirlərdən biri kimi, Nuhiyev Qalib Pirməmməd oğlunun sahibkarlıq fəaliyyəti ilə qanunsuz məşğul olması barədə daxil olmuş məlumat əsasında həyata keçirilmiş təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə) və 192.1-ci (xeyli miqdarda gəlir əldə etməklə qanunsuz sahibkarlıq) maddələri ilə cinayət işi başlanıb.

Aparılmış əməliyyat-istintaq tədbirləri ilə Qalib Nuhiyevin 2019-cu ilin dekabrından etibarən Xudaverdiyev Eltac Həsən oğlundan icarəyə götürdüyü, Bakı şəhəri, Nərimanov rayonu, Ziya Bünyadov prospekti, 110 ünvanında yerləşən qeyri-yaşayış sahəsində qanunvericiliyin tələblərini pozaraq Eltac Xudaverdiyevlə birgə müvafiq dövlət qurumlarından icazə almadan və xüsusi lisenziya əldə etmədən gizli şəkildə müxtəlif xarici valyuta əskinaslarının alqı-satqısı fəaliyyəti ilə məşğul olmalarına və bu yolla 60 min manat məbləğində gəlir əldə etmələrinə əsaslı şübhələr yaranıb. Bununla əlaqədar məhkəmə qərarı əsasında valyuta dəyişmə məntəqəsinə texniki vasitələrdən istifadə etməklə həyata keçirilmiş baxış zamanı külli miqdarda yerli və xarici valyutalar, həmçinin pul vəsaitinin dövriyyəsinə dair qeyd dəftərləri və kompüterlər aşkarlanaraq götürülüb.

Qalib Nuhiyev və Elçin Xudaverdiyev yanvarın 10-da şübhəli şəxs qismində tutulublar. Hazırda cinayət işi üzrə əhəmiyyət daşıyan halların, cinayətlərin törədilməsində hər hansı formada iştirak etmiş digər şəxslərin müəyyənləşdirilməsi istiqamətində tədbirlər davam etdirilir.

# ADA Universiteti "Azərenerji" ASC ilə əməkdaşlığı genişləndirir





ADA Universiteti ilə "Azərenerji" ASC arasında 2019-cu ilin yanvar ayında imzalanmış anlaşma müqaviləsinə uyğun olaraq elektrik mühəndisliyi sahəsini birgə inkişaf etdirmək ənənəsi və 2021-ci ildə əməkdaşlığın daha da genişləndirilməsi ilə bağlı ADA Universitetinin rektoru Hafiz Paşayevlə "Azərenerji" ASC-nin rəhbəri Baba Rzayevin görüşü olub.



Nümayəndə heyətlərinin iştirakı ilə "Azərenerji" ASC-nin Baş İdarəetmə, Elm, Tədris və Laboratoriya Kompleksində keçirilən görüşdə tərəflər arasında imzalanmış 2019-cu il müqaviləsinə görə beş il ərzində 20 tələbənin elektrik və elektronika mühəndisliyi ixtisası üzrə ADA və xarici ölkələrdəki Corc Vaşinqton və digər beynəlxalq universitetlərin ikili diplomunu qazanmaq şərti ilə təhsil alması barədə davam edən prosesin vəziyyəti barədə fikir mübadiləsi aparılıb.

Daha sonra İtaliya-Azərbaycan universitetləri çərçivəsində həyata keçirdiyi əməkdaşlıqla bağlı ADA Universiteti tərəfindən hazırlanan və "Azərenerji" ASC-nin Elmi-Tədqiqat və Layihə-Axtarış Energetika İnstitutu tərəfindən hazırlanan prezentasiyalar təqdim olunub. Görüşdə energetika sahəsinin peşə təhsili üzrə inkişaf etdirilməsinin vacibliyi və bu barədə əməkdaşlığın aparılması ilə bağlı detallar müzakirə olunub. Bildirilib ki, hər il orta məktəbi bitirən, lakin ali məktəblərə daxil ola bilməyən, o cümlədən 9-cu sinifdə məktəbdən ayrılan minlərlə gəncin elektroenergetika üzrə peşə təhsilinə cəlb edilməsi, onların yetişdirilməsi, bununla bağlı hərtərəfli təhsil kompleksinin yaradılması həm ADA Universitetinin, həm də "Azərenerji"nin maraq dairəsində olan vacib məsələdir. Tərəflər yubanmadan bu peşə təhsili ilə bağlı birgə əməli işə keçməyin vacib olduğunu bildiriblər. Görüşdən sonra ADA Universitetinin rektoru Hafiz Paşayev ötən ilin aprel ayında yenidənqurmadan sonra istifadəyə verilən "Azərenerji" ASC-nin Baş İdarəetmə, Elm, Tədris və Laboratoriya Kompleksindəki şəraitlə tanış olub və müzakirələr aparılıb.

# Zəfər qazanan Azərbaycan gəncinə təşəkkür

### Hafiz PAŞAYEV: "Azərbaycan artıq həm intellektual, həm də fiziki baxımdan tam hazırlıqlı insan kapitalına malikdir"

Bu günlərdə ADA Universitetində məzunlarla görüş keçirilib. Onların arasında təkcə intellektual baxımdan deyil, fiziki baxımdan da tam hazırlıqlı, Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda Vətən müharibəsində iştirak etmiş əsgərlər vardı. AZƏRTAC universitetin rektoru Hafiz Paşayevin bununla bağlı qeydlərini təqdim edir.



Bu il təsis edilməsinin 15 illiyini qeyd edən ADA hər qəbul ilini yeni tələbələrlə "tanışlıq sessiyası" ilə başlayır. Gənclər bu sessiyada tədris mərkəzinin binaları, müəllimlər və universitet rəhbərliyi, ADA-nın təhsil fəlsəfəsini və qaydalarını öyrənir, seçdikləri ixtisaslar üzrə fənlər haqda məlumat alırlar. Həmin günlərdə onların keçirdiyi və universiteti bürüyən sevinc və həyəcan mənə də sirayət edir. Çünki qarşılarında rektor kimi ilk dəfə çıxış edərkən az müddət sonra müstəqil Azərbaycanın intellektual gücünə güc qatacaq yüzlərlə yeni diplomat, iqtisadçı, müəllim, mühəndis və ümumiyyətlə, mütərəqqi düşüncə tərzli idarəçiyə müraciət etdiyimin fərqində oluram. Gənclərin biliyi hər bir ölkənin insan kapitalının təməlidir, onların keyfiyyətli və yüksək standartlara uyğun təhsil almaları ölkənin gələcək inkişafını təmin edir.

Lakin mən bu günlərdə məzunlarımızla baş tutan görüşdə fərqli hisslər keçirdim. Çünki bu dəfə qarşımda duran təkcə intellektual baxımdan deyil, fiziki baxımdan da tam hazırlıqlı, Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda Vətən müharibəsində iştirak etmiş, yaralanmış, lakin yenidən ruh yüksəkliyi ilə hərbi xidmətini başa vuraraq qayıdan əsgərlər idi. ADA Universitetinin məzunları arasında Prezident İlham Əliyevin sərəncamına əsasən, Cəbrayıl, Laçın, Qubadlı, Zəngilan, Xocavənd, Şuşa və Suqovuşanın azad olunması, eləcə də "Hərbi xidmətlərə görə" və "Döyüşdə fərqlənməyə görə" medalları, ümumilikdə, 13 medalla təltif edilən gənclər var. Onlar bizə tarixi zəfəri bəxş edən, Ali Baş Komandanın rəhbərliyi ilə dünyaya başqa bir Azərbaycan nümayiş etdirən qüdrətli Azərbaycan Ordusunun sıralarındadır.

Ermənistanın otuz ilə yaxın işğal altında saxladığı Azərbaycan ərazilərini azad görmək, bütün xalqımız kimi, mənim də ən ümdə arzum idi. Azərbaycanın ABŞ-da 1992-2006-cı illərdə səfiri kimi fəaliyyətimin əsas hissəsi məhz bu istiqamətə yönəlmişdi. Lakin hərb meydanında olduğu kimi, informasiya meydanında da biz o zaman işimizi əlverişsiz mövqedən başlamışdıq: Vaşinqtonda təmsil olunduğumuza qədər ABŞ-dakı erməni lobbisi daxili siyasi imkanlardan sui-istifadə edib, Konqresin sabiq sovet ölkələrinin müstəqilliyinin möhkəmlənməsi üçün nəzərdə tutulan Azadlığa Dəstək Aktına 907-ci düzəlişi əlavə etdirmiş və Azərbaycanı o zaman böyük ehtiyac duyduğu ABŞ yardımından məhrum etmişdi. Növbəti illərdə Konqres nümayəndələri ilə saysız-hesabsız görüşlərimdə bir daha əmin oldum ki, dünyanın fövqəldövlətinin qanunverici orqanı yaşadıqları ölkənin milli maraqlarını bada verməkdən belə çəkinməyən lobbiçilərin tələblərinə boyun əymiş və həqiqəti bilmədən Azərbaycana qarşı ədalətsiz qanun qəbul etmişdilər. Bu haqsızlıqla mübarizə isə, təəssüf ki, yalnız arqumentlər toplusundan asılı deyildi, - Azərbaycan bir dövlət kimi inkişaf etməli, nüfuz qazanmalı, diplomatik sahədə çəkisini artırmalı və özü ilə hesablaşmağa məcbur edən oyunçuya çevrilməli idi. O zamana qədər isə biz işimizi davam etdirməli, təmkini siyasi alətə çevirməli və qisas məqamının çatacağına inanmalıydıq.

Azərbaycanın Vətən müharibəsi zamanı bütün dünyaya nümayiş etdirdiyi gerçəkliklərdən biri odur ki, hərbi meydanda havadarları olmadan Ermənistan heç vaxt Azərbaycana qarşı üstünlüyə malik olmayıb. Bunu illər ərzində bildirsək də, ordumuzun mərdliyi, qabiliyyəti və şücaətinin nümayişi hələ irəlidə idi. Diplomatik meydanda isə Ermənistan uydurmalarının ayaq tutub yeriməsinin yeganə səbəbinin yalnız yerlərdəki lobbiçilik hesabına olduğunu çoxdan sübut etmişdik.

Vaşinqtonda işlədiyim müddətdə Ermənistanın təcavüzkar siyasətindən qaynaqlanan arqumentlər ciddi siyasi dairələrdə getdikcə kinayə ilə qarşılanırdı və qeyri-rəsmi söhbətlərdə bizə həqiqətin onlara su kimi aydın olduğunu bildirirdilər.

Xatırlayıram, 2001-ci ildə ABŞ dövlət katibi Kolin Pauelin təşəbbüsü ilə Ki-Uest şəhərində Ermənistan və Azərbaycan prezidentləri arasında danışıqlar keçirilirdi. Heydər Əliyev Ki-Uestdəki Harri Trumen adına kiçik Ağ Evdə dövlət katibi Pauellə görüşdü. Burada dövlət katibi Azərbaycan Prezidentinə xitab edərkən dünyada tanınmış görkəmli siyasi xadimlə yenidən görüşmək imkanını yüksək qiymətləndirdi, onunla hələ 1997-ci ildə Vaşinqtondakı görüşlər zamanı apardıqları söhbətləri xatırladı. Bağlı qapılar arxasında keçirilən danışıqların ilk günü isə dövlət katibi və prezidentlər mətbuat qarşısında çıxış edirdilər. Heydər Əliyev münaqişənin yaranma tarixi barədə məlumat verir, amerikalıların çox yaxşı anladığı beynəlxalq hüquq dilinə istinad edir, işğal altında olan dövləti təmsil etsə də, sülhdən danışırdı. Ondan sonra çıxış edən Robert Koçaryan isə qısaca olaraq bildirdi ki, Ermənistandan neçə min kilometr yolu ona görə qət etməyib ki, həmsədrlərə dərs desin - bura konstruktiv şəkildə işləməyə gəlib. Belə kinayəli və aqressiv ton bütün otaqda gərgin ab-hava yaratdı və hamıya işğalçının kim və hansı səviyyədə olduğuna işarə etdi. Qeyri-ixtiyari olaraq mən də iki dövlət başçısının görüşündə Azərbaycanı təmsil edən dünya səviyyəli siyasətçi Heydər Əliyevin "dərzi-dülgər" səviyyəli bir adamla üz-üzə oturmaq məcburiyyətini taleyimizin acı ironiyası kimi görürdüm. Etiraf edim ki, bu anlarda mən haqqın bərpa olunacağı məqamı görmək üçün səbirsiz idim. Milli qürurumuza vurulan bu yaraya dərman tapılacağı günü bütün gücümlə yaxınlaşdırmaq istəyirdim.

Müharibə iştirakçısı olan ADA məzunlarına və ordumuzun hər bir qəhrəman hərbçisinə hədsiz dərəcədə minnətdaram. Onlar Ali Baş Komandanın rəhbərliyi ilə qisasımızı alıblar və buna görə özümü xoşbəxt hiss edirəm. Belə tarixi qələbələri qazanmaq üçün Azərbaycan artıq həm intellektual, həm də fiziki baxımdan tam hazırlıqlı insan kapitalına malikdir. ADA Universiteti, öz növbəsində, bu kapitalı artırmaq üçün, Vətənimizin hər qarışının inkişafı və dirçəlməsi naminə daha böyük səylər göstərəcək.

## İlin uğurlu yekunları

# Zəfər salnaməsi

## Azərbaycan tarixinin 44 şərəf günü

*Əvvəli 1-ci səh.*

Çünki Qubadlıdan sonra növbəti istiqamət Laçın rayonu idi. Hər gün döyüş əməliyyatı planları mənim tərəfimdən təsdiq edilirdi və hər gün görülmüş işlərə yekun vurularaq məsələ təhlil edilirdi - gün ərzində görülmüş işlər bizim planlarımıza hansı dərəcədə uyğundur və biz hansı nailiyyətlərə çata bilmişik. Qubadlıdan Laçın rayonunun cənub hissəsinə gedən yol daim atəş altında idi. Çünki Laçın rayonuna gedən yol düz Ermənistanın dövlət sərhədinin yanı ilə keçir, orada məsafə bəlkə də 10-20 metrdir və Ermənistan daim o tərəfdən atəş açırdı. Ona görə bizim hərbi birləşmələrimiz digər müxtəlif yollarla, cığırlarla dağları aşaraq Laçın rayonunun strateji yüksəkliklərində yerləşmişdir. Beləliklə, Laçın rayonunun cənub hissəsində yerləşən Güləbird kəndi, Səfiyan kəndi, Türklər kəndi azad edilib və eyni zamanda strateji yüksəkliklər ələ keçiriləndən sonra bu, bizə imkan verdi ki, Laçın dəhlizi artıq atəş altına düşsün".

Oktyabrın 26-da Birinci vitse-prezident Mehriban Əliyeva Zəngilan, Cəbrayıl, Qubadlı rayonlarının bir sıra kəndlərinin və Qubadlı şəhərinin işğaldan azad edilməsi ilə əlaqədar rəsmi "Instagram" səhifəsində paylaşım etdi. Paylaşımda deyilirdi: "Zəngilan, Cəbrayıl, Qubadlı rayonlarının bir sıra kəndləri və Qubadlı şəhəri işğaldan azad edildi! Bu münasibətlə bütün xalqımıza səmimi təbriklərimi çatdırıram! Hər bir yeni qələbənin əldə edilməsi əsgərlərimizin qəhrəmanlığı, şücaəti, cəsarəti, igidliyi və mətanəti sayəsində mümkün olur. Onların hər birinə hədsiz dərəcədə minnətdaram! Uca Tanrı ordumuzu, xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!"

### Ermənistan növbəti hərbi cinayətini törətdi

Döyüşlərdə məğlub olan Ermənistan həmin günlərdə Azərbaycanın yaşayış məntəqələrini və mülki vətəndaşlarını atəşə tutmaqda davam edirdi. Çünki ordumuzla mübarizə aparmağa gücü çatmayan düşmən mülki vətəndaşlarımızı hədəfə almaqla Azərbaycanı öz yolundan döndərməyə çalışırdı.

Azərbaycan Ordusu ilə üzləşməyi bacarmayan qorxaq düşmən oktyabrın 27-də xaincəsinə Bərdə rayonunu atəşə tutdu. Rayona "Smerç" yaylım atəşli reaktiv sistemdən atılan raket atəşləri nəticəsində 4 nəfər mülki şəxs, o cümlədən azyaşlı uşaq həyatını itirdi və aralarında uşaqlar və qadınlar olmaqla, 13 nəfər ciddi xəsarət aldı. Bu, həmin vaxt beynəlxalq vasitəçilərin davamlı səyləri ilə üçüncü dəfə razılaşdırılmış humanitar atəşkəs rejimini kobud şəkildə pozan Ermənistanın beynəlxalq humanitar hüquq öhdəliklərini heçə sayaraq törətdiyi növbəti müharibə cinayəti idir. İki ölkənin xarici işlər nazirlərinin Cenevrədə ATƏT-in Minsk qrupunun həmsədrləri ilə keçirəcəyi görüşü ərəfəsində Ermənistan silahlı qüvvələri tərəfindən növbəti qanlı cinayətin törədilməsi, təcavüzkar Ermənistanın münaqişənin siyasi həllində maraqlı olmadığının və hər vəchlə danışıqlara maneə törətmək məqsədi güddüyünün bariz göstəricisi idi.

Bərdəyə raket hücumu zamanı Ermənistan beynəlxalq qanunlara zidd olaraq kasetli raketlərdən istifadə etmişdi. Bu da mülki əhali arasında itkinin çox olmasına hesablanmışdı.

Həmin gün düşmən cəbhənin Xocavənd, Füzuli və Qubadlı istiqamətlərində hücum etməyə cəhd etsə də, itki verərək geri çəkilməyə məcbur edildi. Keçirilən adekvat tədbirlər nəticəsində düşmən diviziyalarından birinin qərargah rəisi daxil olmaqla, xeyli sayda canlı qüvvəsi, bir tankı, dörd artilleriya qurğusu, "Osa" tipli zenit raket kompleksi, "Qrad" tipli yaylım atəşli reaktiv sistemi, radiolokasiya stansiyası və altı avtomobil texnikası və diviziyasının əsas komanda məntəqəsi bölmələrimiz tərəfindən məhv edildi.

Oktyabrın 28-də isə Ermənistan silahlı qüvvələri Azərbaycanın Bərdə şəhərini "Smerç" yaylım atəşli reaktiv sistemdən növbəti dəfə raket atəşinə tutdu və bu, mülki əhali arasında ağır itkilərə səbəb oldu. Bərdə şəhərinə xaincəsinə edilən raket hücumu nəticəsində uşaqlar da daxil olmaqla, 21 mülki şəxs həlak oldu və 70-dən çox insan ağır yaralandı. Hərbi hədəf əlamətləri olmayan, münaqişə zonasından çox uzaqda yerləşən şəhərdəki yaşayış məntəqələrinin növbəti dəfə hədəfə alınması Ermənistanın terrorçu mahiyyətini bir daha nümayiş etdirdi. Bərdə şəhərində dinc əhalinin məqsədyönlü şəkildə qətlə yetirilməsi soyqırımı, müharibə cinayəti və insanlıq əleyhinə cinayətdi.

### Bərdənin qisası alındı

Ermənistanın bu hərbi cinayətlərinə münasibət bildirən Prezident İlham Əliyev oktyabrın 28-də özünün rəsmi "Twitter" səhifəsində etdiyi paylaşımda Bərdə sakinlərinin qisasının yerdə qalmayacağını bildirdi: "Erməni silahlı qüvvələrinin raketlərlə hücumu nəticəsində Bərdədə həlak olanlara Allahdan rəhmət diləyir, ailələrinə başsağlığı verir, yaralıların şəfa tapmasını diləyirəm. Bərdə sakinlərinin qisası yerdə qalmayacaq və döyüş meydanında işğalçılara layiqli cavab veriləcək".

Birinci vitse-prezident Mehriban Əliyeva həmin gün rəsmi "Instagram" səhifəsində etdiyi paylaşımda bildirdi: "Bu gün Ermənistan silahlı qüvvələri dinc Azərbaycan şəhəri Bərdəyə növbəti dəfə qəddarcasına, qeyri-insani zərbə endiriblər. Zərbə nəticəsində 21 nəfər həlak olub, 70 nəfər ciddi xəsarət alıb. Təəssüf ki, qurbanların sayı artmaqda davam edir. Bu cür vəhşicəsinə hücumlar onu göstərir ki, ermənilərin qəddarlığının həddi yoxdur. Üstəlik, Azərbaycanın dinc mülki əhalisinə hər hücum Ermənistanın ağlını itirmiş hərbi-siyasi rəhbərliyinin total mənəvi tənəzzülünə dəlalət edir.

Bu hücumların məqsədi aydındır - Azərbaycan xalqını qorxutmaq və bizim ordumuzu Ermənistan ərazisinə cavab zərbəsi endirməyə məcbur etmək. Bu, üçüncü tərəfləri münaqişəyə cəlb etməyə imkan verərdi. Lakin düşmənimiz bilməlidir ki, heç nə bizi haqq yolundan dönməyə məcbur edə bilməz. Hər hücum bizi daha da güclü edir və işğal olunmuş ərazilərimizin erməni təcavüzkarlardan azad edilməsi kimi müqəddəs missiyanı başa çatdırmağın zəruri olmasına inandırır.

Həlak olanların ailələrinə dərin hüznlə başsağlığı verir və yaralananların tezliklə sağalmalarını arzulayıram. Azərbaycan Ordusu düşməni döyüş meydanında sıxışdırdığı bu günlərdə biz həmrəyliyimizi qoruyub saxlamalı və Prezidentimizin ətrafında möhkəm birləşməliyik. Yalnız möhkəm yumruq kimi birləşməklə ədalətin zəfər çalmasına nail olacağıq, ona görə ki, Qarabağ Azərbaycandır! Uca Tanrı Vətənimizi və Azərbaycan xalqını qorusun!"

"Amnesty International" təşkilatı da Ermənistanın Bərdə şəhərinə istifadəsi qadağan olunmuş kasetli raketlərlə zərbələr endirdiyini təsdiqlədi. Təşkilatın bu barədə yaydığı açıqlamada deyilirdi ki, Bərdə şəhərinə bir və ya bir neçə "Smerç" raketi atılıb və xəstəxanaya yaxın yaşayış ərazisinə düşüb. "Amnesty International"ın mütəxəssisləri şəkillərə əsasən, şəhərə erməni qüvvələri tərəfindən atılan raket qalıqlarının "Smerç" raketlərinin sursat parçalarının olduğunu təsdiqlədilər. Məlumatda vurğulandı ki, kasetli sursatlardan mülki ərazilərə qarşı istifadə etmək amansızlıqdır və məsuliyyətsizlikdir. Bu, çoxsaylı insan itkisinə, yaralanmaya səbəb olur. Kasetli döyüş sursatlarının hər cür şəraitdə istifadəsi beynəlxalq humanitar hüquqa əsasən qadağandır.

Bərdənin qisası düşməndən döyüş meydanında alındı. Oktyabrın 28-də Ağdərə, Xocavənd, Füzuli, Zəngilan və Qubadlı istiqamətlərində hücuma cəhd edən düşmən bölmələrimizin qətiyyətli zərbəsi ilə itki verərək geri çəkilməyə məcbur edildi. Nəticədə düşmənin xeyli sayda canlı qüvvəsi, bir neçə döyüş texnikası, o cümlədən "Osa" tipli zenit-raket kompleksi, "Konkurs" tipli tank əleyhinə raket kompleksi, 3 "Qrad" tipli yaylım atəşli reaktiv sistemi, 2 "Qiasint" topu, 12 artilleriya topu, minaatan və 6 avtomobil texnikası dəqiq atəş zərbələri ilə məhv olundu.

Oktyabrın 29-da isə düşmənin ordu korpusunun və diviziyasının yüksək rütbəli zabitləri daxil olmaqla, xeyli sayda canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 2 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 14 ədəd müxtəlif artilleriya qurğusu, 6 ədəd avtomobil texnikası və bir neçə dayaq məntəqəsi bölmələrimizin dəqiq atəş zərbələri ilə məhv edildi. Döyüş meydanında məhv olan bölmələrinə dəstək üçün gələn düşmənə məxsus iki "Su-25" tipli hücum təyyarəsi də hərbi hava hücumundan müdafiə bölmələrimiz tərəfindən havada vuruldu.

Prezident İlham Əliyev Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında fərman imzalayıb. Fərmana əsasən, Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində, Azərbaycan Respublikasının inzibati ərazi bölgüsünə müvafiq olaraq, hər rayon üzrə xüsusi idarəetməni həyata keçirən müvəqqəti komendantlıqlar yaradıldı.

### Cəbrayıl, Zəngilan Qubadlı və Füzulinin kəndləri azad edildi

Prezident İlham Əliyev oktyabrın 28-də Rusiyanın "İnterfaks" agentliyinə müsahibəsində Ermənistanın mümkün itkilərinə dair fikirlərini bildirdi. Bu barədə sualı cavablandıran dövlət başçısı deyib: "Baxın, hətta tam riyazi cəhətdən. 256 tank məhv edilib, bu, dünənki gün üçün olan məlumatdır. Hər gün bu rəqəm artır. Hesablayın, orada hərəsində 3-4 nəfər var. Bu, artıq təxminən min nəfər. Sonra 50-dən çox piyadaların döyüş maşını məhv edilib. Orada təxminən neçə nəfərin olduğu aydındır. Yüzlərlə artilleriya topları. Hər birində bir neçə nəfər. 6 ədəd S-300 qurğusu, 40-a yaxın "Osa", "TOR", "KRUQ", "KUB" zenit-raket kompleksləri. 400, bəlkə də 400-dən çox yük maşını, onların böyük hissəsi məhv edilib, həm hərbi qulluqçularla, həm də döyüş sursatı ilə birgə. Əgər bunları hesablasaq, hələ nə qədər səngərlərdə məhv edilib. Axı, biz bu səngərləri, təmas xəttini keçmişik. Bu kadrlar internetdə var. Yəni bizim məlumata görə, təkcə erməni tərəfinin itkisi 5 min və daha çox ola bilər, yaralananlar isə müharibədə bir qayda olaraq, 2-3 dəfə çox olur".

Prezident İlham Əliyev qeyd etmişdi ki, biz itkilərimizi sonra açıqlayacağıq. "Lakin deməliyəm ki, onlar xeyli azdır. Silahlı toqquşmanın xarakteri, mürəkkəb relyef və ermənilərin 30 il ərzində qurduqları istehkamlar nəzərə alınarsa, hesab edirəm ki, hər bir insan həyatı dəyərlidir, lakin bütün bunlarla bərabər, bizim itkilərimiz minimaldır", - deyə dövlət başçısı bildirmişdi.

Uğurlu hücum əməliyyatlarını davam etdirən ordumuz oktyabrın 28 və 30-da Zəngilanın Birinci Ağalı, İkinci Ağalı, Üçüncü Ağalı, Zərnəli, Füzulinin Mandılı, Aladin, Vejnəli, Cəbrayılın Qazanzəmi, Xanağabulaq, Çullu, Quşçular, Qaraağac, Xudaverdili, Qurbantəpə, Şahvələdli, Xubyarlı, Qubadlının Qiyaslı, Əbilcə, Qılıcan, Kavdadıq, Məmər, Mollalı kəndlərini də işğaldan azad etdi.

Noyabrın əvvəllərində növbəti uğurlu əməliyyatlar həyata keçirən ordumuz Cəbrayıl rayonunun Çaprand, Hacı İsaqlı, Qoşabulaq, Mirək, Kavdar, Yuxarı Məzrə, Yanarhac, Zəngilan rayonunun Dərə Gilətağ, Böyük Gilətağ, Məşədiismayıllı, Şəfibəyli, Beşdəli, Qubadlı rayonunun İşıqlı, Muradxanlı, Milanlı, Başarat, Qarakişilər, Qaracallı, Qəzyan, Balasoltanlı, Mərdanlı, Xocalının Qarabulaq, Moşxmaat, Xocavəndin Ataqut, Tsakuri kəndlərini işğaldan azad etdi. Bunlar barədə Prezident İlham Əliyev noyabrın 2-də, 4-də və 7-də "Twitter" hesabından məlumat verdi.

*(Ardı var)*

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***





# 190 ölkə arasında 28-ci

## 10 ən islahatçı ölkə sırasına daxil olan Azərbaycanda aparılan iqtisadi islahatları beynəlxalq qurumlar yüksək qiymətləndirirlər

*Əvvəli 1-ci səh.*

Heç kəsə sirr deyil ki, ötən əsrin 80-ci illərindən bəri dünyada dövlətlər neft amilindən iqtisadi və siyasi təzyiq vasitəsi kimi istifadə edir. SSRİ dağılandan sonra məlum oldu ki, Amerika bir sıra neft ixracatçısı ərəb ölkəsi ilə birləşərək neftin qiymətini süni şəkildə aşağı salmaqla nəhəng bir imperiyanı dağıtmışdı. Bu, belə qənaətə gəlməyə əsas verir ki, hansı ölkənin iqtisadiyyatı yalnız neft amilindən asılıdırsa, onun iqtisadi çöküşü daha realdır. O üzdən təsadüfi deyil ki, indi neftin qiymətini bazarın tələbatından çox dünyanı idarə edən güclər müəyyən edir. Bir də görürsən ki, dünya bazarında heç bir mühüm dəyişiklik baş vermədiyi halda neftin qiyməti kəskin şəkildə aşağı düşür və ya sürətlə bahalaşır. Aradan xeyli vaxt keçəndən sonra məlum olur ki, bu, hansısa bir siyası oyun idi. Bu isə o deməkdir ki, iqtisadiyyatı yalnız xam neftin ixracından asılı olan ölkələr daim risk altındadır.

Məlum olduğu kimi, iqtisadi inkişafda özəl sektor mühüm rol oynayır. Odur ki, Azərbaycanda dövlət səviyyəsində bu sahəyə hər cür dəstək verilir. Hətta indiki pandemiya dövründə dövlət əlini sahibkaların üzərindən çəkmir. Bu səbəbdən Azərbaycanda sahibkarlıq subyektləri pandemiyadan minimum səviyyədə ziyan çəkir. Bu gün ölkəmizdə sənaye məhsullarının 80 faizinin özəl sektorda istehsal olunması da sahibkarlığa dövlət qayğısının nəticəsidir.

Amma bütün bunlar kifayət etmir. Odur ki, ölkədə sahibkarlığın inkişafı üçün fundamental islahatlar həyata keçirilir. İlk növbədə sahibkarların hüquqlarını qorumaq üçün yaradılmış hüquqi baza təkmilləşdirilir, özəl sektora güzəştli kreditlərin verilməsi davam edir və s. Görülən işlərin sayəsində dünyanın mühüm beynəlxalq maliyyə qurumları tərəfindən ölkəmizdə bu istiqamətdə həyata keçirilən tədbirlər yüksək qiymətləndirilir.

Prezident İlham Əliyev 2020-ci ilin yekunlarına həsr olunmuş müşavirədə ölkəmizin bu sahədə qazandığı nailiyyətlər barədə demişdir: "Dünya Bankının "Doing Business" proqramında 190 ölkə arasında Azərbaycan 28-ci yerdədir... Biznes iqlimi, investisiya iqlimi, aparılan islahatlar Dünya Bankı tərəfindən qeyd edilir. Bundan əlavə, Azərbaycan 10 ən islahatçı ölkə sırasına daxil edilmişdir".

Bununla yanaşı, Davos Dünya İqtisadi Forumunun hesabatlarında da ölkəmizdə qazanılan iqtisadi uğurlar yüksək qiymətləndirilir. Məsələn, həmin hesabatlarda qeyd edilir ki, əhalinin elektrik təchizatı səviyyəsinə görə dünya miqyasında Azərbaycan ikinci yerdədir. Həmçinin Azərbaycan həyata keçirilən uğurlu islahatlara görə dünya miqyasında beşinci yerdə qərarlaşıb. Hökumətin uzunmüddətli strategiyasına görə 10-cu yerdəyik. Eyni zamanda hökumətin siyasi sabitliyi təmin etməsinə görə Azərbaycan 11-ci yerdə qərarlaşıb. Ölkəmizdə yaradılan mükəmməl infrastruktur layihələri də Davos Dünya İqtisadi Forumu tərəfindən yüksək qiymətləndirilib. Belə ki, dəmir yolu xidmətlərinin səmərəliliyinə görə 11-ciyik. Hava yolları xidmətlərinin səmərəliliyinə görə isə 12-ci yerdəyik. Avtomobil yollarının keyfiyyəti üzrə ölkəmiz 24-27-ci yerdə qərarlaşıb. İnklüziv inkişaf indeksi üzrə isə Azərbaycan 3-cüdür. Qeyd edək ki, bu hesabat dünyanın inkişaf etmiş 74 ölkəsi arasında aparılıb.

Dünya Bankının "Doing Business" proqramı üzrə aparılan araşdırmalarında və Davos Dünya İqtisadi Forumunun hesabatında əksini tapmış iqtisadi inkişafımızın təməlində isə, Prezident İlham Əliyevin qeyd etdiyi kimi, həyata keçirilən düzgün iqtisadi siyasət və aparılan islahatlar dayanır. Ən vacibi isə odur ki, dövlət başçısı dəfələrlə çıxışlarında qeyd etmişdir ki, bu islahatlar davamlıdır və daim çağırışlara uyğun yeni mərhələyə qədəm qoyacaq.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Qarabağ inkişaf və quruculuq mərkəzinə çevriləcək

*Əvvəli 1-ci səh.*

Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən 2020-ci ilin yekunlarına həsr olunmuş müşavirədə də dövlət başçısı keçən ilin, həm də son 30 ilin əsas yekunu kimi torpaqlarımızın işğaldan azad olunmasını qeyd etdi: *"Azərbaycan 44 gün ərzində tarixi Qələbə qazanaraq öz torpaqlarını azad etdi, düşmənə sarsıdıcı zərbələr endirdi, Ermənistanı məğlub etdi. Bu məğlubiyyət nəticəsində Ermənistan məcbur olub kapitulyasiya aktına imza atıb, təslim olub və biz 3 rayonumuzu bir güllə atmadan, bir şəhid vermədən siyasi yollarla geri qaytardıq. Beləliklə, Ermənistanın 30 il davam edən işğalçılıq siyasətinə son qoyuldu. Biz bunu hərbi yollarla həll etdik".*

Azərbaycan Ordusunun uğurlu hərbi əməliyyatları, Prezident İlham Əliyevin qətiyyəti və yüksək diplomatik peşəkarlığı nəticəsində noyabr ayının 10-da Ermənistan kapitulyasiya bəyanatı imzalamağa məcbur edildi. Azərbaycan və Rusiya prezidentlərinin, Ermənistanın baş nazirinin imzaladığı bu bəyanat birmənalı şəkildə ölkəmizin qələbəsinin, Ermənistanın isə kapitulyasiyasının hüquqi baxımdan təsdiqidir. Eyni zamanda bu sənəd Ermənistanın işğalçı dövlət olduğunu bir daha sübut edən hüquqi aktdır. Üstündən onillər keçsə belə, bu bəyanat Azərbaycanın milli haqqının bərpası istiqamətində əsas tarixi hüquqi sənədlərdən biri kimi çıxış edəcək.

### Dəmir yumruq yerindədir

Adətən müharibələr bu cür sənədlərin imzalanması ilə başa çatır və belə hüquqi anlaşmalar gələcək dövr üçün hər bir tərəfin ortaya qoymalı olduğu davranışları, qalib tərəfin diktələri, məğlub tərəfin yerinə yetirməli olduğu şərtləri təsbit edir. Artıq bəyanatın şərtlərinə əsasən, Ağdam, Kəlbəcər və Laçın rayonları Azərbaycanın nəzarətinə keçib.

Lakin son vaxtlar Ermənistan tərəfindən kapitulyasiya bəyanatının ruhuna zidd olan bəzi hərəkətlərə yol verilib. Belə ki, Fransadan bir heyətin, Ermənistanın xarici işlər nazirinin Dağlıq Qarabağa səfərləri tamamilə qanunsuzdur və təxribatçılıqdan başqa bir şey deyil. Prezident İlham Əliyev müşavirədə bununla bağlı xəbərdarlığını edərək dedi: *"Sənin orada nə işin var? Müharibə onların yadından çıxmasın. Unutmasınlar ki, dəmir yumruq yerindədir. Bu səfərlərə son qoyulmalıdır. Biz xəbərdarlıq edirik, əgər belə təxribat xarakterli addımlar atılacaqsa, Ermənistan daha da peşman olacaq".*

Xatırladaq ki, İlham Əliyev Vətən müharibəsindən əvvəl də Ermənistana xəbərdarlıq etmiş, işğalçı dövləti təcavüzkar siyasətdən və təxribatlardan əl çəkməyə çağırmışdı. Ermənistanın buna məhəl qoymamasının ağır nəticəsi göz önündədi. Azərbaycanın dəmir yumruğu Ermənistana elə bir zərbə vurdu ki, tarixboyu özünə gələ bilməyəcək. Bu dəmir yumruq düşmənə tarixi dərs verdi, onu rəzil günə saldı. Görünür, Ermənistanda bu dərsdən hələ də nəticə çıxarmaq istəyəmənlər var. Onlar unudurlar ki, işğala son qoyan, dövlət sərhədinin hər qarışını tam bərpa edən Azərbaycanın dəmir yumruğu istənilən an onları yenidən əzə bilər.

### Azad olunmuş ərazilərdə infrastrukturun yenidən qurulmasına artıq başlanılıb

Prezident İlham Əliyev müşavirədə giriş nitqində Azərbaycanın qələbəsi ilə ilə bağlı ətraflı danışdı, bir sıra məsələlərə aydınlıq gətirdi. Digər çıxışlarda da əsas prioritet Vətən müharibəsindəki zəfər, həyata keçirilən tədbirlər barədə idi. Yekun nitqində isə dövlət başçısı işğaldan azad olunmuş ərazilərin yenidən qurulması ilə bağlı fikirlərini bildirdi və qeyd etdiyi kimi, ənənəvi infrastruktur layihələri demək olar ki, başa çatmaq üzrədir, ona görə əsas diqqət azad edilmiş torpaqlara olmalıdır. Bu istiqamətdə ilkin infrastruktur layihələrinin icrası isə artıq başlayıb. Belə ki, hələ ötən ilin noyabr ayından Şuşaya yeni yolun çəkilməsinə başlanılıb. İcrasına start verilən digər layihə isə Göygöl rayonunun Toğanalı kəndindən Kəlbəcərə çəkilən yoldur. Bunlardan başqa, Horadiz şəhərindən Zəngilana, oradan Qubadlıya və Laçın rayonuna qədər yeni yolun çəkilsi ilə bağlı göstəriş verilib və hazırlıq işləri gedir.

Həyata keçiriləcək başqa bir mühüm layihə isə Füzuli şəhərində beynəlxalq hava limanının tikintisidir. Tikintiyə yaxın gələcəkdə başlanılacaq. Bundan başqa, Laçın və ya Kəlbəcər rayonunda yeni beynəlxalq hava limanı tikiləcək. Həyata keçirilməsi nəzərdə tutulan başqa bir infrastruktur layihəsi isə Horadiz-Füzuli və Füzuli-Şuşa dəmir yolunun tikintisidir. Horadiz-Ağbənd dəmir yolu da yenidən tikiləcək. Azad olunmuş ərazilərin elektrik enerjisi ilə təminatı, su xətlərinin yenidən qurulması istiqamətində də işlərə başlanılıb.

Müşavirədə görülən işlərdən danışan, prioritetləri elan edən Prezident İlham Əliyev bir daha Qarabağ bölgəsində cənnət yaradılacağını bəyan etdi: *"Bir sözlə, bizim planlarımız böyükdür. Müharibə cəmi iki aya yaxındır ki, başa çatıb. Amma görün, nə qədər böyük işlər görülüb. Bərpa işləri artıq başlanıb və bu, onu göstərir ki, bizim sözümüzlə əməlimiz arasında bu dəfə də heç bir fərq yoxdur. Biz demişdik ki, torpaqlar işğaldan azad olunandan sonra bu torpaqları tezliklə bərpa edəcəyik. Mən bu yaxınlarda demişdim ki, biz Qarabağ bölgəsində cənnət yaradacağıq və sözümdə dururam".*

İşğaldan azad olunmuş rayonlarımızın hamısı yenidən qurulacaq. Vəhşilərin, barbarların dağıtdığı bütün şəhər və kəndlərimiz sürətlə bərpa ediləcək. Onların hər biri əvvəlki şöhrətini geri qaytaracaq. Qarabağ bölgəsində inkişafın Azərbaycan nümunəsi daha möhtəşəm olacaq.

***R.CƏFƏRLİ,***
***"Azərbaycan"***

  

# Vətən deyəndə...

  

● Qarabağ Azərbaycandır!

**Qarabağa əmin-amanlıq gəlir. İllər öncə bunlar əlçatmaz arzuya çevrilmişdi. Budur, xəyallarımız gerçəkləşir. Doğma yurdlara qayıdış proqramları, dinc quruculuq işlərinə başlanılması müzakirə mövzusuna çevrilir, rəsmiləşdirilir, qərarlar qəbul edilir.**



# Bizə qələbə yaraşır

## Azərbaycan Prezidenti İlham ƏLİYEV: "Müharibə Ermənistanın yadından çıxmasın, unutmasınlar ki, dəmir yumruq yerindədir"

Dövlət başçısı İlham Əliyevin 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ilə bağlı xalqa müraciətində, həmçinin 6 yanvar 2021-ci il tarixində ötən ilin yekunlarına həsr olunmuş videoformatda keçirilən müşavirədə bu məsələ müzakirə mövzusu oldu. Bəli, cəmi iki aya yaxındır ki, Vətən müharibəsi başa çatıb. Bu müddət ərzində Qarabağa yeni nəfəs gətirəcək xeyli işlər görülüb. Onlardan ən əsası 30 ilə yaxındır xəyallarımızda getdiyimiz Şuşaya, Laçına, Kəlbəcərə yolların çəkilməsi, vandalların barbarlıq siyasəti nəticəsində tamamilə xarabalığa çevrilən yurdlarımızın yenidən bərpası istiqamətində aparılan təxirəsalınmaz tədbirlər atılan ilk addımlardandır, uğurlu və davamlı olsun.

Müşavirədə qeyd edildiyi kimi, 44 gün ərzində Müzəffər Azərbaycan Ordusu Ermənistanın silahlı quldurlarının saxta mifini darmadağın etdi. Qəhrəman əsgər və zabitlərimiz Azərbaycanın gücünü göstərdi. Ali Baş Komandanımızın rəhbərliyi ilə düzgün planlaşdırılan və həyata keçirilən hərbi əməliyyatlar mümkün olmayanı gerçəkləşdirdi - işğalçıları ağ bayraq qaldırıb məğlubiyyətini boynuna almağa məcbur etdi. Bu, əslində, düşmənin diz çökməsi, yalvarması deməkdir.

Hərb tarixinə zəfər yazan Ordumuzun rəşadətli döyüşləri sayəsində 300-dən çox yaşayış məntəqəsi, eləcə də qədim, doğma Qarabağın zümrüd tacı olan Şuşa işğaldan qurtardı. Bundan sonra silahlı quldur dəstələri haqqında "yenilməz", "basılmaz" mifi yaradan düşmən təslim oldu, kapitulyasiya aktına imza atdı. Kəlbəcər, Laçın, Ağdam da məhz həmin təslim aktından sonra döyüşsüz qaytarıldı.

Müharibə artıq arxada qalıb. Müzəffər Azərbaycan Ordusu bizə Zəfər paradının sevinclərini də yaşatdı. Dövlət başçısının da qeyd etdiyi kimi, İkinci Qarabağ savaşı bizim əyilməz iradəmizi, birliyimizi, müharibə, qələbə rəmzinə çevrilən dəmir yumruğun gücünü göstərdi: "Bu, həm birlikdir, həm gücdür. Cəmiyyətimizdə birlik də var, ölkəmizin gücü də var və həmişə olacaq. Əgər kimsə Ermənistanda bu gün revanş hissi ilə yaşayırsa, böyük səhv edir. O 44 günlük müharibəni onlar heç vaxt unutmasınlar. Bundan sonra əgər kimsə Azərbaycan xalqını təhqir etməyə çalışsa, elə dərsini alacaq ki, o 44 günlük müharibə onun yanında yalan olacaq".

Ermənistanın xarici işlər nazirinin Xankəndiyə gəlməsi müharibədən sonra təxribatdan savayı bir şey deyil. Azərbaycan Prezidenti bu məsələyə münasibətini qətiyyətli şəkildə və birmənalı bildirdi: "Sənin orada nə işin var? Müharibə onların yadından çıxmasın. Unutmasınlar ki, dəmir yumruq yerindədir. Bu səfərlərə son qoyulmalıdır! Biz xəbərdarlıq edirik, əgər belə təxribat xarakterli addımlar atılacaqsa, Ermənistan daha da peşman olacaq! İndi münasibətlərin normallaşdırılması istiqamətində addımlar atılır. Rusiya öz vasitəçilik imkanlarını tərəflərə təqdim edib. Bu yaxınlarda Ermənistana və Azərbaycana səfər etmiş Rusiya hökumət nümayəndələrindən ibarət heyət əsasən bu mövzular haqqında söhbətlər aparmışdır.

Yaxşı, əgər münasibətlər normallaşacaqsa, o zaman belə təxribat xarakterli "səfərlərə" nə ehtiyac var? Nəyi göstərmək istəyirlər? Yenəmi bizi qıcıqlandırmaq istəyirlər? Unutmasınlar ki, onlara çox baha başa gəldi bu tipli addımlar. Ona görə bütün səfərlərə son qoyulmalıdır.

Azərbaycan Prezidenti bir daha vurğuladı ki, biz tarixi ədaləti bərpa etdik. Biz göstərdik ki, heç kim xalqımızın iradəsi qarşısında dura bilməz.

Ötən ilin yekunlarının müzakirəsində bir daha qeyd edildi ki, iqtisadiyyatın inkişafı siyasi müstəqilliyimizi də gücləndirdi, daha da cəsarətli siyasət aparıldı. O siyasət ki, yalnız Azərbaycan xalqının maraqlarına xidmət edir. Bu gün dünyada, dünya xəritəsində, sözün əsl mənasında, müstəqil siyasət aparan ölkələrin sayı o qədər də çox deyil və Azərbaycan onlardan biridir. Qələbə ilə başa vurduğumuz Vətən müharibəsi də bir daha onu təsdiqlədi. Bütün təzyiqlərə baxmayaraq, biz istədiyimizə nail olduq: düşməni torpaqlarımızdan qovduq. İllərlə həll olunmayan Dağlıq Qarabağ problemi artıq yoxdur.

Bu gün müstəqil Azərbaycan dövləti özünün ən şanlı dövrünü yaşayır. Çünki tarixdə heç vaxt bu qədər güclü olmayıb. Bu, həm siyasi, iqtisadi, həm də hərbi gücdür, bir sözlə, xalq-iqtidar birliyidir. Bu, eyni zamanda dövlətimizin regionda oynadığı müsbət roldur. Biz bu gücdən istifadə edərək qarşımızda duran əsas vəzifəni şərəflə yerinə yetirdik.

İlin əvvəlindən sonuna kimi bütün bunlarla yanaşı, digər sahələrdə də bir çox işlər görülüb. Dövlət başçısı fikirlərini açıqlayarkən qeyd etdi ki, bundan sonra məcburi köçkünlər üçün evlər ancaq azad edilmiş torpaqlarda tikiləcək. Füzuli rayonunda, Horadizdə və başqa bir kənddə evlər tikilib. Ancaq bundan sonra daha Bakı, Gəncə, Sumqayıt, Mingəçevir şəhərlərində və hər hansı bir başqa yerdə köçkünlər üçün evlər tikilməməlidir: "Bu yaxınlarda müşavirə keçirərkən mənə məlumat verildi ki, bütövlükdə keçmiş məcburi köçkünlərin 52 faizi şəhərlərdə məskunlaşıb. Bu insanların böyük əksəriyyəti kənd yerlərindən didərgin salınıb, ancaq, nədənsə, məskunlaşma şəhərlərdə aparılıb. Əlbəttə ki, bu insanları yenə də rayon yerlərinə qaytarmaq üçün xüsusi proqram olmalıdır. Mən bu yaxınlarda Prezident Administrasiyasına göstəriş verdim ki, köçkünlər arasında sorğular keçirilməlidir, onların niyyəti öyrənilməlidir. Həm evlərlə təmin olunmuş köçkünlər, həm də bu günə qədər yataqxanalarda, yaxud da uşaq bağçalarında ağır vəziyyətdə yaşayan köçkünlər arasında sorğular keçirilməlidir ki, biz real vəziyyəti bilək...

Mən tam əminəm ki, keçmiş köçkünlərin mütləq əksəriyyəti böyük həvəslə öz doğma torpaqlarına qayıdacaqlar. Buna nail olmaq üçün dövlət əlindən gələni əsirgəməyəcək".

Ötən il dekabrın 31-dən şəhid ailələrinin təqaüdü 500, 1-ci qrup müharibə əlillərinin müavinəti 400, 2-ci qrup müharibə əlillərinki 350, 3-cü qrup əlillərinki isə 300 manata qədər artırılıb. Bunlardan savayı, Milli Qəhrəmanlarımızın təqaüdləri də artırılaraq 1800 manata çatdırılıb. Dövlət başçısının sərəncamı ilə Vətən Müharibəsi Qəhrəmanına Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis olunub ki, məbləği 2000 manatdır. Artırılan təqaüdlər, ümumilikdə, 100 min nəfərədək insanı əhatə edir.

Bundan əlavə, İkinci Qarabağ müharibəsi döyüşlərində iştirak edən və ya şəhid olan vətəndaşların ailələri ilə bağlı son bir ayda görülmüş işlər 7 min şəxsi əhatə edib. 2300 şəxsə sosial ödənişlər təyin olunub. Ötən il 2000 şəhid ailəsi və müharibə iştirakçısının ailəsi özünüməşğulluq proqramlarına cəlb edilib, 2700 nəfərə isə sosial-psixoloji və reabilitasiya xidmətləri göstərilib.

1500 şəhid ailəsi, müharibə əlilinə mənzillərin və evlərin verilməsi nəzərdə tutulub. Artıq 1450 mənzil və fərdi ev həmin şəxslərə təqdim edilib. Ötən il 400 müharibə əlili və əlilliyi olan şəxslər avtomobillə təmin ediliblər.

Azərbaycan Prezidenti bildirdi ki, artıq torpaqlar azad edilib, ona görə də böyük qayıdış və inkişaf prosesləri başlanmalıdır: "Ona görə, əlbəttə, biz bütün bu işləri daha da fəal, daha da məqsədyönlü şəkildə aparmalıyıq ki, Azərbaycanın imkanlarını genişləndirək və ölkəmizin inkişaf dinamikasını artıraq.

Müharibə cəmi iki aya yaxındır ki, başa çatıb. Amma görün, nə qədər böyük işlər görülüb. Bərpa işləri artıq başlanıb və bu, onu göstərir ki, bizim sözümüzlə əməlimiz arasında bu dəfə də heç bir fərq yoxdur. Biz demişdik ki, torpaqlar işğaldan azad olunandan sonra bu torpaqları tezliklə bərpa edəcəyik. Mən bu yaxınlarda demişdim ki, biz Qarabağ bölgəsində cənnət yaradacağıq və sözümdə dururam..."

Azərbaycan Prezidenti İlham Əliyev heç də təsadüfi yerə demədi: "Müharibə Ermənistanın yadından çıxmasın, unutmasınlar ki, dəmir yumruq yerindədir".

*Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"*

● Ölümsüzlüyə qovuşanlar

# Bir məktəbin üç şəhid məzunu

**44 günlük Vətən müharibəsi qələbə ilə sona çatdı. Azadlıq meydanında dekabrın 10-da təntənəli şəkildə Zəfər paradı keçirildi. Qürurlandıq, böyük sevinc hissi yaşadıq... Xalqımıza və müzəffər Milli Ordumuza Qələbə necə də gözəl yaraşırmış! Arxada qalan cəmi 44 gün ərzində nəinki biz, dünya bu müharibədə kimin nəyə qadir olduğunun şahidinə çevrildi.**

Məğlubiyyətə uğrayan təcavüzkar Ermənistan ağ bayraq qaldıraraq, Müzəffər Ordumuzun, onun Ali Baş Komandanı İlham Əliyevin "dəmir yumruq" siyasəti, diplomatik qələbəsi qarşısında diz çökdü, noyabrın 10-da təslim aktına - kapitulyasiya sənədinə qol çəkdi.

Qarabağda 30 il ərzində daş üstə daş qoymayan, terrorçuluq, talançılıq, barbarlıqla məşğul olan daşnak silahlı quldurlarını cəsur döyüşçülərimiz tarixi ərazilərimizdən "iti qovan"kimi qovdular. Düşmən neçə-neçə ağır hərbi texnikasını da döyüş meydanlarında qoyub qaçdı. Ələ keçirilən qənimət - hərbi texnikanın bəziləri Bakıda, Azadlıq meydanında dünyaya nümayiş etdirildi.

Bütün bunlar, əlbəttə, xalqımızın, rəşadətli ordumuzun, xüsusən də Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Vətən müharibəsinə, Qarabağın işğaldan azad edilməsinə illərlə hazırlığının nəticəsidir.

Müharibəni Qələbə ilə başa vurduqdan sonra bu yolda canlarından keçən Vətən oğullarının şəhidlik zirvəsinə yüksələnlərinin adları açıqlandı. Düşmən tərəfinin itkisindən xeyli az olsalar da, onların hər biri xalqımızın və dövlətimizin igid, mərd övladı kimi heç zaman unudulmayacaq. Həmin 3 min nəfərə yaxın şəhidimizin arasında Bakı şəhəri, Nərimanov rayonundakı E.Əliyev adına 93 nömrəli tam orta məktəbin üç məzununun da adlarının olması pedaqoji kollektivimizdə nə qədər kədər hisslərilə qarşılansa da, qürur yerimizə çevrildilər. Ona görə də adları və igidlikləri heç zaman yaddaşımızdan çıxmayacaq hər üç qəhrəmanımızın döyüş yolu, onların şəhidlik zirvəsi şagirdlərimizə örnək dərsi kimi təbliğ və tədris olunacaq. Qəhrəmanlarımızın şərəfinə ayrıca "Şəhidlik zirvəsi" adlı guşə yaratmaqla xatirələri daim əziz tutulacaq.



**Babək Bəxtiyar oğlu Allahverdiyev** 30 may 1979-cu ildə Naxçıvanda anadan olub. 1986-cı ildə Bakı şəhəri, Nərimanov rayonunun 93 nömrəli məktəbində birinci sinfə gedib. 1993-1996-cı illərdə C.Naxçıvanski adına Hərbi Məktəbdə təhsil alıb. Həmin il Bakı Ali Birləşmiş Komandanlıq Məktəbinə - Ali Hərbi Akademiyaya qəbul olub. 2000-ci ildə həmin məktəbin məzunu kimi Azərbaycan Respublikasının Dövlət Quru Qoşunlarında xidmətə başlayıb.

2014-cü ildə ailə həyatı quran Babək iki oğul atasıdır. 2020-ci il sentyabrın 27-də Ermənistanın yenidən hücumu nəticəsində başlayan Vətən müharibəsində iştirak edən baş leytenant Babək Allahverdiyev kəşfiyyat komandiri kimi Füzuli və Qubadlı istiqamətlərində gedən ağır hərbi əməliyyatların iştirakçısı olub. Döyüşə-döyüşə Şuşaya ilk girənlərdən biridir. Şuşaya canı-qanı ilə yol açan Babək elə həmin zirvədə də şəhadətə yüksəlib.

Bakı şəhərindəki İkinci Fəxri xiyabanda canından artıq sevdiyi, uğrunda şəhid olduğu torpağa tapşırılan qəhrəmanımıza Allahdan rəhmət diləyirik!

Məktəbimizin şəhidlərindən biri də 1997-ci il iyun ayının 29-da Bakıda anadan olan



**Bayramov Cavid Azər oğludur.** Məktəbimizin məzunu olduqdan sonra Azərbaycan Texniki Universitetinin Nəqliyyat və Logistika fakültəsinə daxil olmuşdu. Hər bir gənc kimi, onun da arzuları, ayrıca bir dünyası var idi. Hələ orta məktəbdə oxuyarkən sinif yoldaşları ilə gələcək həyat yollarından söz düşəndə Xankəndiyə, Şuşaya yol çəkəcəyini bildirirmiş. Bunün üçün də məhz peşə seçəndə nəqliyyat fakültəsində oxumağa üstünlük vermişdi.

Cavid Bayramov da Vətən müharibəsi başlayanda cəbhəyə könüllü gedənlərdən biri oldu. O, Vətənin dar günlərində rahatlıq tapa bilmirdi. Az qala hər gün hərbi çağırış məntəqəsinə gedir, onu döyüşən ordunun sıralarına yollamağı tələb edirdi. Və getdi də...

Döyüş yolları da ömrü kimi qısa olan Cavid Bayramov 2020-ci il oktyabrın 8-də Füzuli və Hadrud uğrunda gedən əməliyyatlarda Vətənə sevgisini nümayiş etdirərək, igidliklə vuruşdu. Döyüş dostlarına yardım əli uzadan igidimiz özünü düşünmədi. Yolu zirvəyə idi - şəhidlik məqamına. Onu bu yoldan kimsə qaytara bilməzdi. Elə ona görə də getdi, özündən sonraya qalan əziz və şirin xatirələrdə yaşamaq, əbədiyyətə, ölümsüzlüyə qovuşmaq üçün...

1999-cu il oktyabrın 30-da Qobustan rayonunda anadan olan **Əhmədov Mehrac İntiqam oğlunun** şəhidlik zirvəsinə gedən yol isə bir qədər



fərqlidir. 2017-ci ildə bizim məktəbin məzunu olub. Atası İntiqam deyir ki, Mehrac onlar üçün möcüzə doğulub, ailənin sonbeşiyi kimi. Onun dünyaya gəlməsi üçün qurbanlar deyilib. Yeddi yaşına kimi qurbanları kəsilib. Əl üstündə, göz bəbəyi kimi böyüdüblər onu. Orta məktəbi bitirən kimi hərbi xidmətə yollanıb. Əsgərlikdə ilyarım topçu kimi qulluq göstərib, sağ-salamat da geri dönüb.

2020-ci ilin sentyabr ayının 25-də Mehrac yenidən döyüşən ordunun sıralarına qatılıb. Füzuli uğrunda gedən döyüşlərdə qəhrəmancasına döyüşüb. Yaralı əsgər dostlarını döyüş meydanından çıxararkən özü də o zirvəyə ucalıb.

Nur üzlü şəhidimizin arzuları çox olub. Mehracın yaxşı əl qabiliyyəti vardı. Bir-birindən zövqlə düzəldilmiş əşyaları indi ondan qalan əziz yadigarlar kimi qorunur. Əsgərliyə getməmişdən "Neptun" marketlər şəbəkəsində çalışırmış. Müharibədən sağ-salamat qayıdıb istədiyi qıza nişan aparmaq haqqında düşünəndə anasına deyib ki, "tələsməyin..."

Kollektivimizin təsəllisi odur ki, hər üç məzunumuzun qəhrəmanlığı unudulmayıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı Fərmanla hər üç məzunumuz - baş leytenant Babək Bəxtiyar oğlu Allahverdiyev, əsgərlərdən Cavid Azər oğlu Bayramov və Mehrac İntiqam oğlu Əhmədov da "Vətən uğrunda" medalı ilə təltif ediliblər.

Onu da qeyd edək ki, şəhidlərimizin müqəddəs savaşları və döyüş yolları haqqında kitab çapa hazırlayırıq.

*Xalidə İBRAHİMOVA, Bakı şəhəri, Nərimanov rayon E.Əliyev adına 93 nömrəli tam orta məktəbin direktoru*

● Tarix yazan oğullar

# "O, əsgərin payıdır, yeyə bilmərəm"

## Bunu komandirimiz tabeliyində olan, doğma övladları qədər sevdiyi cəsur döyüşçülərimizə deyirdi

**Torpaqlarımızın ərazi bütövlüyü bərpa olundu. Vətənimizin Ermənistan tərəfindən işğalda qalan ərazilərini 44 günlük savaş günlərində azad edən hərbi qulluqçulara, mülki insanlara, polislərə, həkimlərə, damarlarında Vətənə sevgi qanı axan bütün qardaş və bacılara bir könüllü əsgər kimi dərin təşəkkürümü bildirirəm. Vətən yolunda canından keçən şəhidlərimizə Allahdan rəhmət diləyirəm.**



Artıq şəhid və qazilərimiz haqqında söz açmaq imkanı da yetdi. Bu gün sabitlik hökm sürürsə, şəhidlərimizin hesabınadır. Qazilərimizə şəfa diləyir, tezliklə sağalmalarını arzu edirəm.

Cənab Prezident, Ali Baş Komandan İlham Əliyev sərəncam imzaladı ki, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən orduya çağırılan və könüllü gedənlər evlərinə qayıtsın. Bütün hərbi hissələrdə demək olar ki, bayram əhvali-ruhiyyəsi var idi. O sevinci sözlə ifadə etmək çətindir. Elə döyüşçülərimiz var ki, burada olanda ona "...gözün aydın, ata oldun..." və s. kimi xəbərlər gəlirdi. Hamı sevinir, şadlıq edirdi. Mən isə kövrəlirdim. Ona görə ki, Azərbaycanın qeyrətli oğullarından ayrılıb mülki həyata dönəcəyəm. Bu arada polkovnik-leytenant Sabit Arazxanlı haqqında danışmaq istəyirəm. Onun barəsində nəsə demək həm asandır, həm də çətin. Ona görə asandır ki, onunla çiyin-çiyinə xidmət etmişəm, az qala bütün xarakterinə bələd olmuşam. Çətindir, ona görə ki, belə bir qəhrəmanın keçdiyi şərəfli döyüş yolundan yazmağa sözlərim bəs etmir.

Cənab polkovnik-leytenant əslən Kəlbəcərdəndir. 2016-cı ilin Aprel döyüşlərində kəşfiyyat briqadasında fəal iştirak edib. Sentyabrın 26-dan isə ön cəbhəyə yola düşür, bir çox ərazilərin alınmasında böyük rəşadət göstərir, dəfələrlə yüngül yara alsa da, döyüşə davam edir. Bir dəfə də olsun əsgər yeməyi yemədi: "...o, əsgərin payıdır, yeyə bilmərəm" - dedi.

Onun əməyi çox böyükdür. Belə ki, təkcə əsgərlərə deyil, zabit heyətinə də siqaret, corab, papaq, şirniyyat, bir sözlə, gündəlik ərzaq məhsulları alırdı. Açığı, komandirimizin arxa cəbhədə də yaxşı hörməti, nüfuzu var. Özündən savayı, həm də mülki əhali, arxa cəbhədəki dostları maşın-maşın ərzaq və isti geyimlər gətirirdi.

Bir sözlə, arxada qalan döyüş günlərində biz könüllülər və həqiqi hərbi xidmətdə olanlar komandirimizdən yalnız qardaşlıq, atalıq, dostluq, səmimiyyət və qayğı gördük. Necə deyərlər, etdiyi təmənnasız yaxşılıqların sayı-hesabı yoxdur.

Gecə-gündüz dayanmadıq, yuxunun nə olduğunu unutduq, Ağdama yerləşəndə yanımızda mina partladı, komandirimizin ayıq-sayıqlığına görə ondan da qurtulduq. Bax belə çətin günlərdə bir-birimizə arxa-dayaq olduğumuz üçün ayrılmaq o qədər də asan deyil. Ona görə deyirəm ki, sizinlə xidmət etmək qürurvericidir, cənab komandir!

Xahiş edirəm ki, məni də saxlayın, xidmətimi davam etdirim. O isə deyir ki, ixtisasca müəllimsən, səni gözləyən nə qədər şagirdlərin var, burada missiyanı uğurla yerinə yetirmisən, indi isə arxa cəbhədə xidmət göstərəcəksən, geri dönməlisən! Amma mən bu gündən orduda xidmət etmək istəyirəm. Lakin komandirin hər kəlməsi əmrə bərabərdir. Ona görə əmrdən çıxmaq olmaz.

Mən geri, öz əvvəlki arxa cəbhəmə dönsəm də, ürəyim, qəlbim cəbhədəki döyüşçü, səngər dostlarımın, xüsusən də polkovnik-leytenant Sabit Arazxanlı kimi komandirlərin yanında qalır.

Vətənə sizinlə birgə xidmət etdiyim üçün fəxr və qürur duyuram, cənab polkovnik- leytenant! Eşq olsun Azərbaycanın zəfər tarixi yazan Müzəffər Ordusuna, Ali Baş Komandana, Azərbaycan xalqına!

"Qarabağ Azərbaycandır!"

*Eyvaz ƏYYUBLU, Azərbaycan Ordusunun könüllü əsgəri, pedaqoq*

● Əsgər anasının məktubu

# Zəfəriniz mübarək!

**Qarabağ yaramıza məlhəm olan Qələbəniz mübarək, oğlum *İsmət Əhməd oğlu Məmmədov*! Sənin ömür yolun da maraqlıdır, döyüşlərdə zəfər qazanmağınız kimi. Ali Baş Komandanımız İlham Əliyevin Azərbaycan Ordusunun müzəffər yürüşlərinin qələbə soraqlarını "Twitter" səhifəsində paylaşdıqdan və televiziya ilə xalqa çatdırdıqdan sonra sevincimizin hədd-hüdudu olmayıb. Bu günlərimizə şükürlər olsun. Ermənistanın işğalı altında qalan torpaqlarımızdan didərgin salınmış insanların duası sizi qorusun!**

 

Azərbaycan Prezidenti, Ali Baş Komandanı İlham Əliyevin televiziyadakı müsahibələri, xarici ölkələrin jurnalistlərinin suallarına verdiyi cavablar bir döyüşçü anası kimi məni də çox qürurlandırıb, fərəh hissi keçirmişəm! Ermənilərin işğal etdiyi ərazilərdə törətdiklərini gördükcə isə anlamışıq ki, siz ön cəbhədə necə vəhşi məxluqlarla döyüşmüsünüz! Halal olsun dövlətimizin sizlərə olan qayğısına!

Hansı ana sevinməz bu Zəfərə?! 30 il bundan öncə ermənilər xalqımıza divan tutdu. Torpaqlarımızı işğal etdi, Xocalıda elə dəhşətli soyqırımı törətdi ki, dilə gətiriləsi deyil.

Azərbaycanın gücü, xalqımızın birliyi, Ali Baş Komandanımızın mətin iradəsi ilə Ordumuz 44 gün ərzində düşməni diz çökdürdü. Ermənistan indiyə kimi törətdiyi vəhşiliyə görə layiqli cəzasını aldı. Vətənə bu xidmətdə sənin də payının olması, ana kimi, qəlbimi fərəhlə döyündürür.

Şuşa və Ağdam məscidlərində verilən azan səsləri sizi qorusun, əziz əsgər və zabitlərimiz!

İsmət, oğlum, sən hərb sənətini seçəndən atan Əhməd Məmmədov, uzun illər Az.Gəyliyən kənd orta məktəbinin direktor müavini olan baban Mahmud Məmmədov da qürur duyublar. Yalnız səninlə yox, kəndimizin igid oğullarının hamısı ilə fəxr edirik ki, Qarabağın işğaldan azad edilməsində, Vətən müharibəsində könüllü olaraq Bakıdan döyüşlərə yollandınız.

Əziz oğlum, sən komandirsən. Komandir əsgərinin atası, qardaşı, doğması, əzizidir. Bilirik ki, qarda-yağışda, soyuqda onların qayğısını çəkirsiz. Kəndimizdən daha bir nəfərin - **Novruzov Füzuli Vahid oğlundan** da bizə bir soraq ver. Eşitmişik ki, o da Şuşanı azad edən əsgərlərimizdəndir. Anası Sitarə xanım da bütün əsgər və zabitlərimizlə, o cümlədən oğlu ilə fəxr edir, salamlarını sizə mənim məktubum vasitəsilə çatdırır.

Əziz oğlum, bu günlər dünyanın harasında yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı oğlu, qızı özünü Qarabağda, düşmənlə üz-üzə döyüşlərdə sanır. Demək, təkcə siz yox, bütövlükdə, xalqımız, Ali Baş Komandanımızın əmrinə müntəzir dayanaraq, düşməni ifşa edir, onun çirkin niyyətini, terrorçu olduğunu aləmə yayır. Ermənilər yalnız sizin qabağınızdan qaçmır, həm də dünyada ifşa edilir. Bu da bizə və sizə imkan verir ki, onlara layiq olduqları yeri göstərək. Bizə Qələbə sevincləri yaşatdınız, var olun!

*Füruzə MƏMMƏDOVA, Gürcüstanın Borçalı mahalının Dmanisi rayonunun Az.Gəyliyən kənd sakini*

# Biz birlikdə güclüyük!

## Pandemiyaya qarşı effektiv mübarizə müsbət nəticələr verir



*Əvvəli 1-ci səh.*

Ölkəmizdə vaksinasiya 150 məntəqədə aparılacaq. Həmin məntəqələrdə xəstənin qeydiyyatı, şikayətlərin qəbulu, qızdırmanın ölçülməsi, kompüterdə və jurnalda qeydiyyatın aparılma qaydası barədə məlumat verilir.

Vaksinasiyanın dövlət hesabına və könüllülük prinsipi əsasında aparılması nəzərdə tutulur. Kütləviliyin təmin olunması üçün əhali arasında peyvəndləmənin aparılmasının vacibliyi və əhəmiyyəti barədə geniş maarifləndirilmə işlərinin də həyata keçirilməsi nəzərdə tutulur.

Respublikamızda qlobal böhranın aradan qaldırılması istiqamətində görülən hərtərəfli tədbirlər davam etdirilir ki, bu da pandemiyanın fəsadlarını minimum həddə saxlamağa imkan verib.

Ümumiyyətlə, vətənimizdə virusun üzə çıxdığı ilk zamandan etibarən ona qarşı atılan mümkün effektiv və zəruri addımlar ardıcıllıqla həyata keçirilməyə başlanılıb. Dövlətimiz vətəndaşların layiqli həyat şəraitinin təmin edilməsi, onların sağlamlığının etibarlı müdafiəsi və hazırkı qlobal problemin təsirindən qorunması üçün bütün imkanlardan istifadə edir. Mövcud sanitar-epidemioloji vəziyyətə uyğun lazımi işlər görülür. Buna görədir ki, Azərbaycan koronavirusa qarşı effektiv mübarizə aparan və minimum itkilərlə üzləşən ölkələr sırasındadır. Ümumdünya Səhiyyə Təşkilatı da dəfələrlə Azərbaycanı bu xüsusda dünya ölkələrinə nümunə göstərib.





Xüsusilə də səhiyyə infrastrukturunun tez bir zamanda pandemiya ilə mübarizəyə yönəldilməsi, modul tipli xəstəxanaların qurulması koronavirusa qarşı mübarizədə effektiv nailiyyəti birbaşa şərtləndirdi. Müasir texnologiyalar əsasında quraşdırılan və hər biri 200 çarpayılıq olan xəstəxanalar ehtiyat çarpayı fondunun formalaşdırılmasında böyük rol oynadı. Ümumiyyətlə, son illər ərzində Azərbaycanın hər bir yerində, o cümlədən Bakı şəhərində müasir xəstəxanaların tikilməsi sayəsində koronavirusla mübarizədə böyük problemlərin öhdəsindən gəlindi.

Mütəxəssislərin də vurğuladığı kimi, COVID-19 infeksiyasının aparılan testlər sayəsində erkən aşkarlanması çox vacibdir. Bu sahədə də ölkəmiz lazımi addımları atıb. Koronavirusa yoluxma hallarının müəyyənləşdirilməsi üçün yeni, ən müasir standartlar səviyyəsində əlavə tibbi laboratoriyalar alınıb, diaqnostik alətlər və tibbi ləvazimatlar vaxtında ölkəyə gətirilərək tibb müəssisələrinə təhvil verilib. Virusun diaqnostikası üçün tibb müəssisələrində dünyanın aparıcı şirkətlərinin istehsalı olan müasir laboratoriya sistemləri qurulub, onlar Avropa ölkələrinin buraxdığı testlərlə təchiz edilib. Hazırda ölkədə testlərin aparılması üçün 23 laboratoriya fəaliyyət göstərir və adambaşına keçirilən testlərin sayına görə Azərbaycan dünya miqyasında qabaqcıl yerlərdədir. Hazırkı dövrə qədər xəstəliyin aşkarlanması üçün 2 milyon 2 yüz mindən çox test edilib.

Dünya təcrübəsindən də bəlli olduğu kimi, koronavirus infeksiyasının qarşısını almaqda ən effektiv vasitələrdən biri də karantin rejiminin tətbiqidir. Sanitar epidemioloji vəziyyətin təhlilinə əsasən, Azərbaycanda yanvarın 18-dək sərtləşdirilmiş karantin rejimi tətbiq olunub. Ümumi karantin rejiminin müddəti isə yanvar ayının 31-dək artırılıb. Aidiyyəti qurumlar tərəfindən vətəndaşların karantin rejiminin tələblərinə əməl etməsi istiqamətində ciddi nəzarət həyata keçirilir.

Təbii ki, tətbiq edilən karantin rejimi iqtisadiyyata təsir edir, həm sosial sferada, həm də insanların davranışlarında məhdudiyyətlərə səbəb olub. Buna görə də Azərbaycanda pandemiyadan zərər çəkən insanların maddi və mənəvi cəhətdən dəstəklənməsi, ölkə iqtisadiyyatına dəyən ziyanın aradan qaldırılması üçün dövlət tərəfindən mühüm tədbirlər həyata keçirilir. Karantin dövrü ərzində pandemiyadan əziyyət çəkən insanlara maddi və sosial yardımlar edilir.

Görülən bütün bu qabaqlayıcı tədbirlərin nəticəsidir ki, son zamanlar ölkəmizdə koronavirusa yoluxma statistikasında müsbət dinamika müşahidə olunmaqdadır. İnfeksiyaya gündəlik yoluxma halları xeyli aşağı düşüb. Xəstəlikdən sağalanların sayı gündəlik yoluxanların sayını üstələyib. Bu da xəstəxanalardakı aktiv xəstə saylarının aşağı düşməsi və səhiyyənin yükünün nisbətən azalması deməkdir.

Vurğulamalıyıq ki, dövlətimiz təkcə öz daxilində deyil, pandemiya ilə qlobal səviyyədə də mübarizə aparır. Elə COVID-19 pandemiyasına qarşı mübarizədə ölkələrin səylərini birləşdirməsi, çoxtərəfli əməkdaşlıq göstərməsi təşəbbüsünü də Azərbaycan irəli sürüb. Dövlətimiz bir sıra ölkələrə və beynəlxalq təşkilatlara maliyyə yardımı və humanitar yardım göstərilməsi proqramında fəal iştirak edib. Respublikamız Ümumdünya Səhiyyə Təşkilatının büdcəsinə 10 milyon dollar məbləğində könüllü ianə edib. Eyni zamanda 30-dan çox ölkəyə maliyyə yardımı və humanitar yardım göstərib.




Göründüyü kimi, hökumət tərəfindən pandemiyanın ilk günlərindən hazırkı dövrə qədər COVID-19 infeksiyasının geniş yayılmasının qarşısının alınması istiqamətində görülən ardıcıl tədbirlər öz bəhrəsini verir. Yaxın zamanlarda isə peyvəndləmənin tətbiqi ilə sağlam həyata qayıtmaq imkanımızın daha da sürətlənəcəyi şübhəsizdir.

***Yasəmən MUSAYEVA, İlham BABAYEV (foto), "Azərbaycan"***





## İlham Əliyevin dəmir yumruğu Ermənistanın başını əzdi

### İşğal siyasətinin qurbanı olan Ermənistan tarixinin ən ağır, acınacaqlı və utanc dövrünə qədəm qoydu

*Əvvəli 1-ci səh.*

*Yalançı qəhrəmandırlar bunlar. Bax, mən burada durmuşam, dağıtdığınız məscidin önündə, dağıtdığınız Ağdam şəhərində, öz ordumla buraya gəlmişəm. Qalib kimi gəlmişəm. Nə gizlənirsiniz orada siçan kimi?! Koçaryan, Sarkisyan, mən sizə deyirəm. Paşinyan heç kimdir. Onun indi dərdi, azarı hakimiyyətdə qalmaqdır. Buna görə də bütün müxalifəti tutdurur. Qərb də susur buna, susur, ağzına su alıb. Görmür ki, nələr baş verir orada?! Hərbi cinayətkarlar, Xocalı qatilləri, sizi məhv etmişik. Azərbaycan əsgəri, Azərbaycan zabiti sizi məhv edib. Əcəb də eləyib!"*

Hərbi xuntanın üç il bundan əvvəl devrilməsinə baxmayaraq, bu gün də Ermənistanda belə etiraflara rast gəlinir: ölkənin, onun keçmiş rəhbəri Serj Sarkisyanın siyasi fiaskosunun müəllifi Yerevanı uğurla təcrid durumuna salan Azərbaycanın dövlət başçısı İlham Əliyevdir. Azərbaycan Prezidenti öz siyasəti ilə hərbi xuntanın siyasi iflasını təmin etdi, müharibə canilərini tarixin arxivinə göndərdi. Bu canilər nə müharibə günlərində, nə də ondan sonra ortalıqda görünmədilər. Çünki Ermənistan yalnız Paşinyanın təxribatlarının deyil, həm də onların həyata keçirdikləri işğal siyasətinin faciəsini yaşadı.







### "Müharibədən sonra qorxu hələ də canımızdadır"

Son 18 il ərzində Azərbaycan həm iqtisadi, həm də hərbi baxımdan olduqca möhtəşəm inkişaf yolu keçib. Demoqrafik baxımdan respublikamızın göstəriciləri kifayət qədər qənaətbəxşdir. Ermənistanda isə bütün bunların əksi olan proseslər baş verib. Ötən dövr ərzində Azərbaycan qlobal enerji və nəqliyyat layihələrini uğurla həyata keçirməklə Qafqazda lider dövlətə çevrilib, beynəlxalq mövqelərini olduqca möhkəmləndirib. Azərbaycan diplomatiyası konkret aspektlər üzrə dünyanın bir çox dövlətləri ilə səmərəli əməkdaşlıq sistemi yaradıb. Ermənistan isə işğal siyasətinə görə regiondakı bütün əməkdaşlıq formatlarından kənarda qalıb. Terrorçulara məxsus qapalı siyasətlə beynəlxalq səviyyədə də hər hansı uğura imza ata bilməyib.

Azərbaycanın Ermənistanı cəzalandırması, ordusunu döyüşdə darmadağın etməsi bir aydan çoxdur ki, bu ölkədə siyasi qarşıdurmalara yol açıb, iqtisadi vəziyyəti daha da pisləşdirib. Günlərdir davam edən etiraz aksiyaları bütün Ermənistan cəmiyyətini ağır duruma salıb. Bu barədə sosial şəbəkələrdə yazan ermənilər rəzil vəziyyətə salındıqlarını dilə gətirirlər. Məsələn, Nanar Sarkisyan adlı "Facebook" istifadəçisi belə bir paylaşım edib: "Biz hələ də anlaya bilmirik ki, Ermənistan hakimiyyəti niyə İlham Əliyevin fəaliyyətindən nəticələr çıxara bilmir? Azərbaycan torpaqlarını geri qaytardı, bizdə isə geri dönən və hələ də gəlməkdə davam edən yalnız əsgərlərimizin cənazəsidir". Karen Aşotyan adlı biri də belə bir şərh yazıb: "Açıq reallıq budur. Müharibədə İlham Əliyev Paşinyana yüksək peşəkarlığın necə olduğunu göstərdi. Bizim baş nazir bəs nə etdi? Noyabrın 10-da məğlubiyyətimizi rəsmən təsdiqlədi, seyrçi mövqeyində qaldı". Qaqik Petrosyan isə "Twitter"də yazıb: "Müharibədən sonra qorxu hələ də canımızdadır. İlham Əliyev Azərbaycan üçün lazımi addımlar atdı, əraziləri qaytardı. Bəs Nikol nə edir?" Movses Baqratyan da "VKontakte" sosial şəbəkəsində erməni iqtidarına qarşı etirazını bildirib: "İlham Əliyevin Azərbaycan üçün nələr etdiyi göz qabağındadır. Ermənistan rəhbərliyi isə yalnız öz maraqlarını güdür, onlar üçün dövlətin və xalqın mənafeləri yoxdur. Məğlubiyyətdən sonra Paşinyan hansı üzlə xalqın qarşısına çıxır? Bəs sabah Azərbaycan əsgəri Yerevana girsə, nə edəcəyik?"

Ovik Karapetyanın "Twitter"dəki paylaşımı isə daha çox bəyənmə toplayıb: "Azərbaycan Prezidenti Qarabağı geri qaytarıb, sabah Yerevanı da götürəcək. Biz müharibədən sonra təlaş içərisində yaşayırıq. Ermənistan iqtidarından təngə gəlmişik".

Baş verənləri böyük narahatlıqla izləyən hakimiyyət sosial şəbəkələrdə fikirlərini açıq deyən ermənilərə qarşı daha çox repressiya metodundan istifadə etməyə çalışır. Amma görünən odur ki, bunlar heç də həqiqəti etiraf edən ermənilərin sayının azalmasına təsir etmir, əksinə, onlar Ermənistanı rəzil günə salan hakimiyyətə qarşı daha sərt mövqe tuturlar. Məhz bu xüsusda Ermənistanda sosial şəbəkələrdə baş verənlərin təhlili həqiqətən də burada böyük bir qütbləşmənin yarandığını üzə çıxarır. Bu vəziyyət Azərbaycanın, onun lideri İlham Əliyevin düşmən üzərində inamlı qələbəsinin Ermənistan cəmiyyətindəki etirafıdır.



### Ermənistan cəhənnəmə çevrilib

Ötən il noyabrın 10-dan etibarən Yerevanda baş verənlərdən sonra ölkədə, demək olar ki, hakimiyyətsizlik və siyasi xaos hökm sürür. Əhalinin bir qismi hökumətin istefasını tələb edir. Bunu Ermənistanda minlərlə insanın iştirakı ilə keçirilən aksiyalardan da görmək olar. Amma iqtidar küçələrə hərbi və polis qüvvələri çıxararaq sələfləri kimi hakimiyyəti güc yolu ilə saxlamağa hazır olduğunu göstərir.

Ölkədə insan hüquqları sahəsində yaşanan problemlərin miqyası sürətlə genişlənməkdə, vəziyyət ifrat həddə pisləşməkdədir. Hakimiyyətin öz maraqlarını təmin etmək məqsədilə repressiv metodlara daha çox yer verməsi etirazları bir qədər də artırıb. Amma iqtidar mənsubları hələ də buna əhəmiyyət verməyərək rəqib və təhlükə saydıqları qüvvələri ən sərt üsullarla neytrallışdırmağa çalışırlar. Ermənistanın "4rd.am" saytı yazır: "Ölkəmiz müharibədəki məğlubiyyət və pandemiya fonunda cəhənnəmə çevrilib. Həm kəndlərdə, həm də şəhərlərdə əhalinin 98 faizi yoxsulluq içərisində yaşayır. Ölkə rəhbərliyində xalqı fəlakətə sürükləyən oğrular, fırıldaqçılar, əclaflar, satqınlar əyləşib. Bu, sadəcə, sözlər deyil".

Qeyd olunur ki, Ermənistanda polis və məhkəmələr təzyiq alətinə çevrilib: "Onlar öz xalqına qarşı Stalin KQB-sindən daha qəddardırlar. Stalin insanları Yakutsk, Sibir, Altaya zorla sürgün edirdi. Amma keçmiş və indiki hakimiyyət insanları o həddə çatdırıblar ki, artıq onlar əsir düşərgələrində əziyyət çəkən babalarının yerlərinə könüllü gedirlər".

Ümumiyyətlə, etiraz aksiyaları ətrafında baş verən proseslər insan haqlarının pozulması, məmur özbaşınalığı, qanunsuz həbslər, məhkəmələrin sifariş əsasında hökmlər çıxarması və bu qəbildən olan digər hallar indi Ermənistanı xarakterizə edən əsas hallardan sayılır. Beynəlxalq miqyasda müxtəlif təşkilatlar, insan hüquqlarının müdafiəsi ilə məşğul olan qurumlar bu xüsusda Yerevana dəfələrlə iradlar tutsalar da, reallıqda dəyişən heç nə yoxdur.

### Sadə ermənilər döyüşmək istəməyiblər

Azərbaycanın tarixi zəfəri ilə başa çatan müharibə ilə bağlı Ermənistanın məğlub ordusuna dair hər gün maraqlı faktlar ortaya çıxmaqdadır. Bu sahə üzrə araşdırmalar aparan erməni jurnalist Andranik Arşakyan bildirir ki, müharibənin başladığı ilk günlərdən erməni gənclər Qarabağa getməmək üçün ölkədən qaçmağa başlayıblar. Erməni jurnalist yazır ki, savaş müddətində hərbi komissarlıqlar orduya çağırışla bağlı ciddi çətinliklərlə üzləşiblər: "Respublika çağırış komissiyasındakı mənbədən əldə etdiyimiz məxfi informasiyaya görə, müharibə vaxtı saxta sağlamlıq vəziyyətinə görə orduya getməyənlərin sayı artmaqla yanaşı, hərbi xidmətə getməmək üçün ölkədən qaçan gənclərin də sayı sürətlə çoxalmışdı. Hətta cari ilin ilk yarısında orduda xidmətdən xilas olmaq üçün 2000 insan ölkəni tərk edib. Bununla yanaşı, valideynlər böyük məbləğdə pul verərək, övladlarını hərbi xidmətdən yayındırıblar. Bütün bunlara səbəb isə kasıbların övladlarının Qarabağa göndərilməsi və orada ölməsidir".

Ermənistan ordusunda qeydə alınan nizamnamədən kənar münasibətlər də valideynlərin orduya inamını tam sarsıdıb. Belə insidentlər zamanı xəsarət alan hərbi qulluqçuların valideynlərinin Ermənistan Müdafiə Nazirliyinə dəfələrlə müraciət etmələrinə baxmayaraq, hadisələrin qarşısını almaq mümkün olmur. Digər sahələr üzrə də Ermənistanda vəziyyət sürətlə pisləşir, ölkə fəlakətə yuvarlanır.

### İqtisadi böhran, sosial partlayış

Ermənistanda vəziyyəti ağırlaşdıran daha bir məqam müharibədən sonra və pandemiya dövründə sosial-iqtisadi vəziyyətin daha da pisləşməsidir. Əhalinin getdikcə dərinləşən sosial problemləri, işsizlik, xarici sərmayənin az olması, istehsalın yoxluğu Ermənistanda vəziyyəti daha da ağırlaşdırır. Hökumət tərəfindən xaricdən alınan borclarla elektrik enerjisi, su təminatı, həmçinin xidmət sahələrində vəziyyətin yaxşılaşacağı deyilsə də, reallıqda bunun əksi müşahidə olunur. Kommunal xidmətlərin qiymətləri durmadan bahalaşır, digər sosial xərclər davamlı olaraq artır.



Erməni iqtisadçı Samvel Qasparyanın sözlərinə görə, məhz ağır sosial-iqtisadi durum üzündən, ümumiyyətlə, Ermənistana xarici sərmayələr qoyulmur. Ekspert vurğulayır ki, hazırda bu ölkəyə ancaq hakimiyyətdə güclü dayağı olanlar və elə hakimiyyətin öz nümayəndələri sərmayə yatırırlar. Erməni iqtisadçısı bildirir ki, investisiya ilə bağlı situasiya çox pisdir: "İnvestisiya məsələsində "kədərli" sözü çox yumşaq səslənir. Milli statistika xidmətinin məlumatı bu ilin birinci yarısının yekunları, sərmayə axını əvəzinə, ölkədən daha çox pul çıxarıldığı gerçəyini ortaya qoyub".

Ölkədən pul axınının artımını buradakı ümidsiz vəziyyətlə əlaqələndirən iqtisadçı vurğulayır ki, bunun bir səbəbi insanların öz əmlaklarını sataraq ölkəni tərk etməsidirsə, digər səbəbi onların öz kapitallarını daha təhlükəsiz mühitdə yatırım etmək istəməsidir. Ölkə əhalisinin yarıdan çoxu yoxsulluq həddində yaşayır. Burada orta aylıq əməkhaqqı çox aşağı səviyyədədir. Əvvəllər Ermənistanın mövcudluğu xarici yardımlardan asılı idisə, son dövrlər ölkə bundan da məhrum edilib.

Analitiklər Ermənistanın ağır vəziyyətə düşməsində daha çox keçmiş hakimiyyəti günahlandırırlar. Məhz onların səriştəsiz siyasəti nəticəsində ölkənin uçuruma sürükləndiyi iddia olunur. Yaranmış vəziyyəti şərh edən ekspert Armen Rustamyan artıq Ermənistan iqtisadiyyatının çökdüyünü bildirir: "Erməni xalqı xaricdən gələn kreditlər və ianələrin hesabına yaşayır. Hazırda Ermənistan əhalisinin böyük əksəriyyəti yoxsulluq içindədir. Bu, çox acınacaqlı durumdur, bizim iqtisadiyyat, vaxt keçdikcə, daha da pisləşir. Ölkənin rəhbəri hansısa bir tədbiri görməyi belə düşünmür".

Ümumiyyətlə, real mənzərə göstərir ki, 2020-ci il Ermənistanda yaşanan tənəzzülün daha da sürətlənməsi ilə xarakterizə olunub və yeni ilin də bundan nəyə görəsə fərqlənməsi gözlənilmir. Aydın görünür ki, Ermənistan və onun xalqı işğal siyasətinin faciəsini yaşayır. İlham Əliyevin rəhbərliyi ilə güclü Azərbaycan dövlətinin Ermənistana verdiyi tarixi dərs bu ölkəni dərin fəlakətə sürükləyib.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

## B İ L D İ R İ Ş

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası tərəfindən 29 dekabr 2020-ci il tarixdə 2021-ci il üçün kondisioner və havalandırma avadanlıqlarına servis xidmətinin təşkili işinin satın alınmasına dair keçirilən kotirovka sorğusu prosedurunda "HAŞ" Məhdud Məsuliyyətli Cəmiyyəti qalib elan edilmişdir.

Qalib təşkilatla 11 yanvar 2021-ci il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası tərəfindən 29 dekabr 2020-ci il tarixdə 2021-ci il üçün qazanxana və nasosxanaya servis xidmətinin təşkili işinin satın alınmasına dair keçirilən kotirovka sorğusu prosedurunda "Aztermotexnika" Məhdud Məsuliyyətli Cəmiyyəti qalib elan edilmişdir.

Qalib təşkilatla 11 yanvar 2021-ci il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi "Azərpoçt" MMC tabeli poçt müəssisələrinin "Möhür üçün ehtiyat hissələri"nin satın alınması məqsədilə kotirovka sorğusu elan edir

Kotirovka sorğusunda iştirak etmək üçün qiymət təklifi (nəqliyyat, sığorta, vergi, gömrük rüsumları və digər xərclər nəzərə alınmaqla) və digər zəruri sənədlər 2 nüsxədə (əsli və surəti) qapalı zərfdə, imzalanmış və möhürlənərək 15 yanvar 2021-ci il saat 18:00-dək Bakı şəhəri, Səbail rayonu, Üzeyir Hacıbəyli, 72 ünvanında yerləşən inzibati binaya təqdim olunmalıdır.

Zərflər 18 yanvar 2021-ci il saat 10:00-da həmin ünvanda açılacaqdır.

Telefon: (012) 493 56 00, mail ünvanı: office@azerpost.az.

***Tender komissiyası***

## Azercell abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 13.01.2021-ci il saat 23:30-dan etibarən 14.01.2021-ci il gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Bərdə DOST Mərkəzi üçün İT İnfrastrukturunun (sistemlərin) qurulmasına lazım olan avadanlıqlar, proqram təminatları və onların quraşdırılması işlərinin alınması məqsədilə elan edilən açıq tender prosedurunda iştirak edən iddiaçıların təklifləri qiymətləndirilmişdir. Tender komissiyasının 28 dekabr 2020-ci il qərarına əsasən, **"Halal-P" MMC** qalib elan edildi.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti cəmiyyətin gəmilərinə mülki məsuliyyət növü üzrə sığorta xidmətlərinin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 18 yanvar 2021-ci il saat 18:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Heydər Əliyev prospekti, 152, "Çinar plaza", 24-cü mərtəbə.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti kranlara illik texniki xidmətlərin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 21 yanvar 2021-ci il saat 18:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Heydər Əliyev prospekti, 152, "Çinar plaza", 24-cü mərtəbə.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

## "Bakı Metropoliteni" QSC istismarda olan müxtəlif növ konteynerlərdə yağış sularının qarşısının alınması üçün hidroizolyasiya işlərinin satın alınması məqsədilə kotirovka sorğusu elan edir

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər imzalanmış və möhürlənmiş kotirovka təkliflərini 14.01.2021-ci il saat 17:00-dan gec olmamaq şərti ilə təqdim etməlidirlər. Göstərilən müddətdən gec təqdim olunan kotirovka təklifləri baxılmadan geri qaytarılacaqdır.

Maraqlanan təşkilatlar **(+99412) 490-01-01** telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka təklifləri "Bakı Metropoliteni" QSC-nin Bakı şəhəri, Nəsimi rayonu, M.Rəfili 16 ünvanında 15.01.2021-ci il saat 14:00-da açılacaqdır.

İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində "Sosial Xidmətlər Agentliyi" Publik Hüquqi Şəxsi *açıq tender elan edir*

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində "Sosial Xidmətlər Agentliyi" Publik Hüquqi Şəxsi agentliyin aparatı üçün ofis sahəsinin və anbarın icarəsi xidmətlərinin (6 aylıq) satın alınması üzrə açıq tenderə dəvət edir.

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

| | |
|---|---|
| **İştirak haqqı:** | **100 (bir yüz) manat** |
| **Satınalan təşkilat:** | **Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində "Sosial Xidmətlər Agentliyi" Publik Hüquqi Şəxsi** |
| **H.hesabı:** | **AZ88IBAZ38060019447403110206** |
| **VÖEN:** | **1405196831** |
| **Bank:** | **Azərbaycan Beynəlxalq Bankının Nərimanov filialı** |
| **Kodu:** | **805540** |
| **VÖEN:** | **9900001881** |
| **Müxbir hesabı:** | **AZ03NABZ01350100000000002944** |
| **S.W.I.F.T BIK:** | **IBAZAZ2X** |

**Büdcə gəlirlərinin təsnifat kodu - 142330**
**Büdcə səviyyəsinin kodu - 7**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);

- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması, son bir il ərzində riskli vergi ödəyiciləri ilə qarşılıqlı əməliyyatlarının olmaması (sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir); (05.01.2021-ci il tarixdən sonra alınmış arayış qəbul edilir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2019-cu il üzrə);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir); (05.01.2021-ci il tarixdən sonra alınmış arayış qəbul edilir);*
- *satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması (iddiaçılar tərəfindən müvafiq sahədə peşəkarlığını, təcrübəsini və ixtisaslı kadr imkanlarının mövcudluğu barədə təsdiqedici sənədlər təqdim edilməlidir (büdcə və ya fərdi sahibkarlarla müqavilələrin surətləri, layihənin həyata keçirilməsində iştirak edəcək işçilərin CV və mövcud sertifikatlar);*
- *satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması (son dövrə olan məlumat qəbul edilir);*
- *mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat (Statistika Komitəsindən alınmalıdır. Sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir); (05.01.2021-ci il tarixdən sonra alınmış arayış qəbul edilir);*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması (son dövrə olan məlumat qəbul edilir);*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması (son dövrə olan məlumat qəbul edilir);*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi (son dövrə olan məlumat qəbul edilir).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 01.02.2021-ci il saat 17:45-ə qədər və tender təklifi ilə bank təminatı sənədlərini isə 09.02.2021-ci il saat 17:45-ə qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 10.02.2021-ci il saat 17:45-də açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən 21 yanvar 2021-ci il saat 11:30-da keçirilməsi nəzərdə tutulan Bakı Metropoliteninin III yeni (Bənövşəyi) xəttinə aid "Xocasən" elektrik deposu, "Xocasən-Avtovağzal" mənzil tunelləri və B-03 stansiyası üçün kabel və şin bağlantılarının satın alınması üzrə açıq tenderin vaxtı 03 fevral 2021-ci il saat 11:30-a keçirilmişdir. Bununla əlaqədar iddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 25 yanvar 2021-ci il saat 11:30-a qədər, tender təklifi və bank təminatını isə 02 fevral 2021-ci il saat 11:30-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

***Tender komissiyası***

## Azərbaycan Dövlət Pedaqoji Universiteti 2021-ci il üçün universitetin inzibati binalarında məişət tullantılarının daşınması, zərərsizləşdirilməsi, zibil çənlərinin dezinfeksiyası və yuyulması işlərinin kotirovka sorğusu üsulu ilə satın alınmasını elan edir

Maraqlanan təşkilatlar (+99412) 493 15 01 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 11.01.2021-ci il saat 14:10-dan 13.01.2021-ci il saat 14:10-dək qəbul olunur.

Ünvan: Üzeyir Hacıbəyli, 68
Telefon nömrəsi: +99412 493 15 01
E-mail: **maliye.adpu@gmail.com**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası tərəfindən 29 dekabr 2020-ci il tarixdə 2021-ci il üçün akademiyada 24 saat mühafizə xidmətinin təşkili işinin satın alınması üzrə elektron satınalma vasitəsilə keçirilən açıq tender proseduru Azərbaycan Respublikasının "Dövlət satınalmaları haqqında" Qanununun 50.1-1-ci maddəsinə əsasən ləğv edilmişdir.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az

## ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədova əzizi
**SÜDABƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədova əzizi
**SÜDABƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin deputatı, İntizam komissiyasının sədri Eldar İbrahimov Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədova əzizi
**SÜDABƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baba Rzayev və "AzərEnerji" ASC-nin kollektivi Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədova əzizi
**SÜDABƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin İşlər müdiri Firudin Hacıyev və İşlər İdarəsinin kollektivi iş yoldaşları Vüsal Axundova bacısı
**RÜSXARƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin İşlər müdiri Firudin Hacıyev və İşlər İdarəsinin kollektivi iş yoldaşları Fazil Səfərəliyevə qardaşları
**NADİR və TOFİQ SƏFƏRƏLİYEVLƏRİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Eldar Əzizov və Bakı Şəhər İcra Hakimiyyəti başçısı Aparatının kollektivi Bakı Şəhər Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyevə anası
**FATMA XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Ağabəy Əsgərov və Siyavuş Novruzov Abdin Fərzəliyevə anası
**FATMA XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektorluğu və kollektivi Nazirlər Kabineti Aparatının rəhbəri Rüfət Məmmədova atası
**TOFİQ MƏMMƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 4918
Sifariş 36
Qiyməti 40 qəpik